2 AZN

0/7

№6(38), 2007

ƏDƏBİ, FƏNNİ, SİYASİ, İCTİMAİ, MÜSƏVVƏR, HƏFTƏLİK
TÜRKCƏ MƏCMUƏYİ - İSLAMİYYƏDİR

# Füyuzat

*İnsan oğlunun ədəbdən nəsibi yoxdursa, insan deyildir. İnsan ilə heyvan arasındakı fərq ədəbdir.*

*Şəms Təbrizi*

**Yaşamaq yanmaqdır, yanasan gərək,**
**Həyatın mənası yalnız ondadır,**
**Şam, əgər yanmırsa, yaşamır demək**
**Onun yaşamağı-yanmağındadır.**

B.Vahabzadə



Harada olursan ol, nə zaman qalxırsan qalx,
nə vaxt gəlirsənsə gəl...
Təki bir şam kimi yan, işıq saç. Elə yan ki, yanğın mənim də əlimi, qəlbimi yandırsın, könlümün buz bağlamış dağlarını əritsin... Mən də ayılım!..

# içindəkilər


6 ƏDALƏT
*HƏSƏN SƏBRİ*



12 İRADƏ İNSANI
*ABDULLAH GƏNC*



20 ŞƏMS TƏBRİZİ VƏ MÖVLANA
*MÜXTAR CƏFƏRLİ*



34



46



DƏRVİŞ YUNUS

| | |
|---|---|
| TEYMUR ƏHMƏDOV | 3 |
| MÜTƏRCİM | 16 |
| S.RAMİZOĞLU | 26 |
| MƏMMƏD ARAZ | 30 |
| MUSA YAQUB | 31 |
| ABBAS SƏHHƏT | 32 |
| MƏMMƏD ARAZ | 33 |
| MÖHBƏDDİN SƏMƏD | 40 |
| ELMİRA QASIMOVA | 46 |
| S.ƏLİYEV | 52 |
| MÜBARİZ YUNUSOV | 62 |



8(05) | 16988
Füyuzat
2007.№6

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

16988

# Füyuzat

№ 6(38), 2007 (1906–1907)

**Təsisçi** "Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar" Fondu
**Baş redaktor** Teymur Əhmədov
**Redaktor** Elçin Bilaloğlu
**Məsul katib** Mübariz Yunusov
**Şöbə müdiri** Samir Ramizoğlu
**Redaksiya heyəti** Cəmil Quliyev
Tofiq Köçərli
Allahşükür Paşazadə
Bəxtiyar Vahabzadə
Ağamusa Axundov
Fuad Qasımzadə
İsmail Allahverdi
Yusif Rüstəmov
Sevda Məmmədəliyeva
Şirməmməd Hüseynov
Cahangir Məmmədov
Əlirza Qafarlı
Ağa Hacıbəyli
Qürbət Gümüşov
Muxtar Cəfərli
**Dizayner** Fəxri Vəliyev
**Korrektor** Suğra Osmanova
**E-poçt** fuyuzat2007@e-mail.ru
**VÖEN** 1300563641
**Tiraj** 500
**Ünvan** Bakı şəhəri, AZ-1122, H.Zərdabi pr., 78
**Telefon** (+994 12) 4332297
(+994 50) 7223334
**Faks:** (+994 12) 4332294

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat №1303.

**Dərc olunan yazılar müəlliflərin mövqeyini əks etdirir.**
**Əlyazmalar geri qaytarılmır.**
**Jurnalın materiallarından istifadə edərkən, istinad zəruridir.**

**"Füyuzat" jurnalına abunə olmaq istəyənlər üçün:**
6 aylıq – 10 AZN
12 aylıq – 18 AZN

**"NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur.**


# baş redaktordan


PROFESSOR **TEYMUR ƏHMƏDOV**




Vətən, ana Vətən!...

Ata-baba ocağından başlayan Vətən əcdadlarımızın məskunlaşdığı əraziləri əhatə edir. Biz iftixarla deyirik: Odlar yurdu – Azərbaycan doğma vətənimizdir. Bəli, tarixən başı müsibətlər çəkmiş Azərbaycan!..

Səfalı ecazkar təbiəti və yeraltı-yerüstü sərvətləri ilə yadellilərin ağlını çaşdıran, dincliyini pozan bərəkətli Azərbaycan torpağı həmişə amansız hücumlara məruz qalıb parça-parça bölünüb. Lakin Azərbaycan – Odlar yurdu Səməndər quşu kimi öz qüdrəti gücünə yenidən dirçəlib, varlığını qoruyub saxlayıb: vətənsevər qəhrəman övladlarının ölüm-dirim mübarizəsi, canıqanı bahasına.

Vətənin şərəf və şöhrətini onu canından artıq sevən təəssübkeş insanlar saxlamışlar. Azadlıq eşqi və müstəqillik həsrəti ilə yaşayan soydaşlarımızın son məqsədi – vətən torpağını azad və məsud, cənnətməkan görmək istəyi olmuşdur. Ona görə açıqfikirli qələm sahibləri zaman-zaman insanları haqqa, ədalətə, xoşbəxt istiqbala dəvət edirdilər, azadlıq və istiqlaliyyətə qovuşmaq üçün çıxış yolunu birlikdə və mübarizədə görürdülər.

Nəriman Nərimanova görə millətin oyanması, mübarizə aparması üçün özünü tanıması başlıca şərtdir. O yazırdı: "Bir millət özünü tanımayınca, hüququnu düşünməz...

Bir millətə məxsus məslək ümum ideal üçün bir yoldur. Ümum ideala çatmaq üçün, yəni insaniyyətə xidmət etmək üçün millətə lazımdır özünü tanısın. Bir millət özünü tanımaz isə, özü ilə qeyrisinin fərqini düşünməyə qadir olmaz isə, xüsusi məsləki dalınca yeriş edə bilməz. Bu yolda yeriş etməz isə ümum müqəddəs məslək nə olmağını da düşünməz.

Özümüzə türk deyib də xüsusi bir məslək dalınca getməliyikmi? Getməliyik desəniz, özümüzü gərəkdir tanıyaq. Fəqət tanımaq üçün nə lazımdır?

Milli dil, milli məktəb, milli mətbuat və qeyri-qeyri şeylər deyilmi?"

Gerilik, ətalət və fanatizm girdabına mübtəla olan vətəni bu bəladan xilas etmək açıq fikirli ziyalıları həmişə düşündürmüşdür.

Mirzə Fətəli Axundov xalq içərisində dünya mədəniyyətindən xəbərdar olan qeyrətli, təəssübkeş, "vətənpərvərlik və xalqı sevmək nəşəsi"ni başa düşən adam sorağında idi.

Ürəyi vətən eşqilə çırpınan Əlibəy Hüseynzadə millətin qəflət yuxusundan ayılmamasını özünə dərd etmişdi:

Ayıltmadı qələmim
Bu türk ilə əcəmi.
Nə qoydular yazayım,
Nə qırdılar qələmi.

Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalında "Azərbaycan" adlı məqaləsində böyük bir həqiqəti həmvətənlərinə başa salmaq niyyəti ilə ürək ağrısı ilə yazırdı:

"Ax, gözəl Azərbaycan vətənim! Harada qalmısan?.. Ay torpaq çörəyi yeyən təbrizli qardaşlarım, ay keçəpapaq xoylu, meşginli, sərablı, goruslu və moruslu qardaşlarım, ey ərdəbilli, qalxanlı bəradərlərim! Gəlin, gəlin, gəlin mənə bir yol göstərin! Vallah ağlım çaşıb! Axır dünya və aləm dəyişildi, hər bir şey qayıdıb öz əksini tapdı, hər mətləbə əl vuruldu, gəlin biz də bir dəfə oturaq və keçə papaqlarımızı ortalığa qoyub bir fikirləşək haradır bizim vətənimiz?!

Gəlin, gəlin, ey unudulmuş vətənin cırıq-mırıq qardaşları! Gəlin görək beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırqamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar?!

Niyə sakitsiniz, ey mənim lüt-üryan vətən qardaşlarım?!"

Klassik ədəbiyyatda vətəni sevmək, vətəndaşlıq ideyasının güclü təbliği günün tələbi idi. Xalqın həmdərd fikir bahadırları tarixi şəraitin verdiyi fürsətdən istifadə edib işıqlı məqsədə doğru ümumxalq yürüşünə nail olmaq üçün vətənpərvərliyi əməl və hərəkət məramnaməsinə çevirmək istəyirdilər.

Müasir bədii ədəbiyyatımızda vətən, vətənpərvərlik və vətən borcu ideyalarının təbliği ənənəvi davam etdirilsə də dövrün sosial-siyasi istiqaməti onun məna və məzmun çalarlarında ciddi dəyişikliyə səbəb olmuşdur. Sovet hakimiyyəti illərində yetmiş il vətən – sovet vətəni, milli vətənpərvərlik – Sovet vətənpərvərliyi, vətəndaş – sovet vətəndaşı kimi təlqin olunmuşdur. Sovet birliyi tərkibində olan bütün xalqların məfkurəsini sovet xalqı ideologiyası ilə zəhərləyən, "Böyük qardaş" sayılan, Rusiya mahiyyətcə şovinist siyasətini dəyişmədi.

Üzərində ay ulduz rəmzi olan üç rəngli bayrağını əbədi qaldıran xalqımızın mübarizə əzmi, hünəri ilə yaranmış müstəqil Azərbaycan Respublikası bu gün bütün dünyaya öz varlığını və qüdrətini sübut etməklə yanaşı, ərazi bütövlüyünü tam bərpa edəcəyinə dərin inam oyadır.

XX əsrdə özünü dərk edən, tanıyan həmvətənlərimizin təəssübkeşliyi, milli qeyrəti, birliyi sayəsində Azərbaycanın heç bir zaman misli görünməmiş sosial-iqtisadi, mədəni və siyasi inkişafı, yüksəlişi deməyə əsas verir ki, xalqımız xoşbəxtlik sorağındadır, gec-tez son yüz ildən bəri itirilmiş ərazilər bərpa olunacaq, vətən torpağı bütövləşəcək, qüdrətli və yenilməz olacaqdır. Gələcəkdə hər bir vətən övladı, əmin-amanlıq şəraitində məsud və firavan yaşayacaqdır. Zamanın hökmü belədir.

Ölkəmizdə azadlıq və istiqlaliyyət gərgin mübarizə şəraitində bərpa edildi. XX əsrin axırlarında xalqımız son dərəcə ağır sınağa məruz qaldı. Mənfur erməni millətçiləri rus imperiyasının hərbi qüvvələrinin köməyi ilə yüz minlərlə soydaşlarımızı doğma yurd-yuvasından didərgin saldılar, xalqın azadlıq hərəkatını boğmaq üçün ölkəmizdə 20 yanvar faciəsi, Xocalı qırğını törədildi. Dağlıq Qarabağı Ermənistana birləşdirmək məqsədi ilə erməni-rus hərbi birləşmələri torpaqlarımızın iyirmi faizini işğal etdi. Məkrli erməni millətçiləri zəbt etdikləri kənd, qəsəbə və şəhərlərdə tarixi abidələri dağıtdı, zəngin flora və fauna, təbii sərvətlər talandı, münbit torpaq sahələri yandırıldı.

Bu çətin sınaq illəri xalq azadlıq və mübarizə yolunda qurbanlar verdi. Bu gün xalqımız torpaqlarımızı qaytarmaq niyyəti ilə sülh yoluna önəm verir. Əgər yağı düşmən cinayətlərinə son qoyub işğal altında olan torpaqları tərk etməsə, güclü hərbi qüvvəyə malik ordumuz onları darmadağın edəcəkdir. Həqiqət belədir: Bir qarış torpaq belə düşmənə güzəşt edilməyəcəkdir. Bir milyona yaxın qaçqın və köçkün doğma yurd-yuvalarına qayıtmalıdır.

Azərbaycan respublikasının Prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı siyasəti xalq dəstəkləyir, bəyənir, onu əmin edir ki, istənilən vaxt əldə silah düşmənə qarşı ölüm-dirim mübarizəsinə qalxmağa hazırdır. Belə məqamda hər bir vətəndaşın üzərinə böyük məsuliyyət düşür. Vətən, vətənpərvərlik anlayışı öz yeni məna və məzmunu ilə hər kəsin fikrində və qəlbində bərqərar olmaqla yanaşı, vətəni göz bəbəyi kimi qorumaq məqsədi ilə onu əməl və hərəkət məramnaməsinə çevirməlidir.

Azərbaycan müharibə şəraitindədir. Düşmənlə üz-üzə dayandığımız bir vaxtda qeyrətli, təəssübkeş vətən övladı cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq vətənpərvərlik, vətəndaşlıq borcu anlayışını və onun tələblərini dərk etməlidir.

Lakin təəssüf hissilə deməliyik ki, ölkəmizin radio və telekanalları, mətbuatı, lisey və orta ixtisas məktəbləri vətən, vətənpərvərlik və vətəndaşlıq borcu mövzusunun əməli təbliğatına günün tələbi səviyyəsində diqqət yetirmirlər.

Halbuki dövlət əhəmiyyətli bu işin günün tələbinə uyğun təşkili əlaqədar müəssisə rəhbərlərinin vətən qarşısında müqəddəs borcudur.

Varlıq aləmində var olan bütün canlı-cansız məxluqlar, yaradılış qayələrinə əsasən, öz missiyalarını gerçəkləşdirirlər. Onlar həyatda nəsillərini davam etdirərkən, ən ali vəzifələrini unutmazlar. Ya bir başa, ya da dolayısı ilə insana xidmət edirlər. Qüdrətin qədər proqramı ilə proqramlaşmış bir toxum – torpağın dar həbsxanasından, sərt qayaların altından çıxaraq insanlığa xidmət şərəfinə qovuşur. Məna və ruh yönüylə aləmlərin xülasəsi olan insan da bu ali xidməti təqdir etməli və təbiətdəki ahəngi, nizamı qoruyaraq öz vəzifəsini yerinə yetirməlidir...



# ƏDALƏT








*Kainatın şəhadəti ilə sabit ədalət hikmətə bağlıdır. Cəzası və mükafatı bilinməz, məchul bir hikmətlə təcəlla edər. Çünki ədalət ən böyük əxlaqdır. Ən böyük əxlaqda isə nöqsan olmaz...*

| HƏSƏN SƏBRİ

Bəşər övladının bütün cəmiyyətləri ədalət üzərində təsis edildiyinə görə hər işdə ədaləti əldən verməməlidir. Bir millətdə ədalət haqqı ilə hökm olunarsa, o millət hər zaman salamat və səadət içində yaşayar.

Millət fərdlərinin hər birinin şəxsi hüquqlarını və cəmiyyətin ümumi mənafeyini təmin etmək üçün ədalətdən başqa çarə yoxdur. Bunun üçün maddi həyat qüvvələrinin ən birinci xadimi və həqiqi mühafizəçisi ədalətdir.

Əgər bir millətdə ədalət bir az da olsa əskilməyə başlasa, o millətin maddi qüvvəsi də o qədər əskilər. Əgər ədalət tamamilə ortadan qalxarsa, o millətin məhv olması şəksiz və şübhəsizdir.

Çünki ədalət ortadan qalxdıqda onun yerinə zülm girər. Zülmün girdiyi yerdə isə əxlaq pozğunluğu baş qaldırar. Heç kim bir-birini tanımaz, bilməz. Bu sayədə də cəmiyyətlər fəqirlik, ehtiyac, miskinlik və məğlubiyyət altında qalar. Zülmü idarələrdən qaldırmayan və qaldırmağa çalışmayan millət və hökumətlərin gündən-günə idarəçiliklərinin qarışdığını görməkdəyik...

Bu gün İslam ümmətinin Avropa mədənilərinin zülm və həqarətinə, təcavüz və zorakılığına hədəf olduqları və məzlumanə fəryadlarını heç kəsə çatdıra bilməməkləri öz zülmümüzdən, öz ədalətsizliyimizdən meydana gəlmişdir!

Bir millətin yaşaması və var olmasına ədalət xidmət etdiyi kimi bir millətin məhv olmasına xidmət edən də zülmdür. Bu halda bir millətin ən çox hümmət edəcəyi şeylərdən biri də əda-

lətin bərqərar olması, millət fərdlərindən hər birinin ədalət nemətindən istisnasız bərabər şəkildə faydalanması və ədalətin əbədi olaraq təmin olunması və davam etməsidir.

Ədalətin saysız-hesabsız olan xüsusi faydalarından biri də xarici millətlərin fərdlərini cəzb edərək ümumi cəmiyyətə qarışmasıdır. Belə olduqda isə: "Şübhəsiz, Allah ədaləti, yaxşılıq etməyi və qohumun haqlarını əda etməyə əmr edir və çox çirkin günahlardan, xoşagəlməz əməllərdən, zülm və həddi aşmaqdan çəkindirir. Sizə öyüd verir ki, bəlkə ibrət götürəsiniz" əmrinə tabe olmaqdır. Məmləkəti idarə etmək daxili və xarici olmaq üzrə iki hissəyə ayrılır.

Daxili idarə, hər millətin əxlaq və mədəniyyətinin səviyyəsinə görə təsis edilsədə, o millət tərəqqi və inkişafa çatdıqda ədalətli dəyişikliklər etməlidir.

Məmləkətin idarə edilməsi üç növdür: mütləq idarəçilik, məşrutə idarəçiliyi, cümhuriyyət idarəçiliyi.

Mütləq idarəçilik – məmləkətin idarəsini tamamilə əlinə almış və idarəçilik həmin hökmdarla sərhədlənən hökumətidir. Rusiya və Türkiyə kimi.

Məşrutə idarəçiliyi – millətin fərdlərinin seçdiyi üzvlərdən təşkil olunan milli məclisin rəy və qərarına tabe olan hökmdarların idarəçilik üsuludur. Almaniya və s. Avropa dövlətləri kimi. Lakin məşrutə idarəçiliyin bir neçə növü vardır. Bəzi məşrutə hökumətlərdə milli məclis hökmdarın əmrinə tabe olur...

Məşrutə idarəçiliyin bir növünə də "məşruteyi həsəbiyyə" adı verilir. Bu kimi məşrutəçilikdə zadəgan sinfi əhalidən bir çox yönü ilə üstün və fərqli tutulur. İngiltərə parlamenti bu kimi məşruti idarəçilik növündəndir. Məşruteyi həsəbiyyədə millət vəkilləri hökmdar tərəfindən təyin olunur...

Cümhuriyyət idarəçiliyi – xüsusi bir hökmdarı olmayıb millət tərəfindən hökmdar məqamında olmaq üzrə seçilən millət rəisidir. Bu kimi məmləkətlərdə və idarələrdə idarə üsulu milli məclisin qərarları ilə cərəyan edir.

Zənnimlə idarə üsulunun hansının faydalı, hansının zərərli olduğunu hal-hazırdakı dünyada baş verən hadisələr və şiddətli çevrilişlər isbat etməkdədir.

Məmləkət idarəçiliyi hansı növdən olursa-olsun millətin xüsusi və ümumi mənafeyini, salamatlıq və səadətini hal-hazırkı və gələcəkdəki vəziyyətini təmin etməlidir. Əks təqdirdə o millətin həyat qüvvələri inkişaf və təkamül edə bilməz.

Məmləkətin idarəçiliyi lazımı şəkildə faydalı olması üçün məşrutə idarəçiliyi olmalıdır. Milli məclisin qəbul edəcəyi qanun və nizamlar isə millətin düşüncə və istedadına görə olmalıdır. Bu qanun və nizamları icra etməklə məmur olan heyət üzvləri iffət və qeyrət sahibləri, işi bacaran və istiqamətli şəxslərdən seçilməli, məmurlar idarəçilikləri altında olan şəxsləri sui-istimala məcbur etməmək üçün maaşlarını haqqı ilə və zamanında verməli və işlərinin daimi bir təftişə tabe tutulması labüd və lazımdır.

Cəmiyyətə aid olan işlərin lazımı xərclərindən bir qismi dövlətə aid əmlak və varidatdan hesab olunsada, cəmiyyətin bütün fərdlərinin sərvətindən hər kəsin payına düşən miqdarın ayrılması ilə toplanan məbləğlərdən təmin olunan bu hissəyə vergi deyilir.

Məhz məmləkətin gözəl idarəçiliyi üçün millətin fərdlərindən alınacaq vergilər mümkün qədər az və yüngül olmalı, idarəçiliyin xərclərinin məsrəfində lazımı olan həddən kənara çıxılmamalıdır.

Ona görə də məmləkətin düçar olacağı ehtimal olunan böhranlara qarşı hər zaman ehtiyatlı hərəkət etməklə bərabər istifadə qaydalarına da riayət edilməlidir.

Məmləkətin idarəçiliyinin daxili qismi haqqında veriləcək təfsilat çox olsa da biz müxtəsər olaraq bu qədərini bəyan etməklə kifayətlənərək, xarici qisminə keçək.





Məmləkətin idarəçiliyinin xarici qismində olan əhəmiyyət daha böyükdür. İşin başlanğıcında əcnəbi millətlərlə olan ticarət münasibətləri, milli sənaye və ticarət nöqteyi-nəzərindən çox əhəmiyyətli olduğundan həmin münasibətləri gözəl şəkildə aparmaq, genişləndirmək, davam etməsinə çalışmaq və o əcnəbi məmləkətlərdə yaşayan fərdləri bütün hüquqları ilə bərabər qorumaq lazımdır.

Bundan sonra xarici millətlərin həyatlarında meydana gələn tərəqqi və təkamülləri mütəmadi olaraq izləmək və o tərəqqi və təka-



***Qələm — Quranın and yeri, cahanın təfəkkür xəzinəsinin açarı, kainatın qədər, tale yazısının katibi, elmin könüllərə, ağıllara feyz verən naxışı və dilin qardaşıdır...***

mülləri əxz edib öz məmləkətində tətbiq etməyə çalışmaq lazımdır.

Digər millət və hökmdarlarla gözəl siyasi münasibət qurmalı, bir tərəfdən onların xoş nəzərlərini cəlb etmək, xususi mənfəətlərini milli mənfəətlərə cevirməyə çalışmaq, digər tərəfdən də hər cür istək və təşəbbüslərindən vaxtında

istər daxili, istər xarici işlərdə ağıllı və tədbirli olmaları mütləqdir.

Məhz məqaləmizin başından buraya qədər olan bəyanatımızdan da anlaşıldığı kimi millətlərin həyatı fərdlərin həyatı kimi məhdud deyildir. Həyati qüvvəsi sağlam və güclü olan bir millət nə ictimai həyatını, nə də digər mil-



***İşığı sevməyən yarasa xislətli, günəşdən qaçan bayquş təbiətli "insan"lar, kinlə dolmuş ürəklər, qana batmış pəncələr ilə dünyanı inildədən, bəşəriyyəti sızıldadan, səmaları ağladan hadisələr törədirlər. Körpələr beşikdə parçalanır, kökslərdə ürəklər dağlanır, kəndlər, şəhərlər od tutub yanır. Yanğınları söndürməyə qaçan, şəhərləri xilas edən, tifillərə sahib çıxan, ürəklərə məlhəm olan, səmaları sevindirən sevdalılar günəş kimi doğacaq və bütün qaranlıqları nurlandıracaq...***

agah olaraq, ehtiyat tədbirləri görmək lazımdır.

Məmləkətin idarəçiliyinin xarici qismi əhəmiyyətli olduğu qədər həm də çox incə məsələdir. Xarici ölkələrdə xidmət edəcək siyasi məmurların gözəl şəkildə seçilməsinə həddən artıq diqqət edilməli və xarici işlərlə bağlı məsələlərdə fərdi xərclərdən çox çəkinilməlidir.

Xülasə: bir millətin salamat və fəlakəti məmləkəti idarə edənlərin əlində olduğu üçün

lətlər arasında mövqeyini heç bir vaxt itirməz.

Bəli, bir millət çox fırtınalar keçirər, xarici hücumlardan zərbə alar, bəzən də təhlükədə qalar, lakin mənəvi gücü olarsa, vücudunda açılan ağrılı yaralar tezliklə sağalar və təhlükəni də asanlıqla başından atar.

Dünyada məhv olan millətlərin hansı olursa-olsun, əvvəlcə ictimai həyatlarının maddi-mənəvi qüvvələrini tədricən itirmiş, ondan





sonra məruz qaldıqları xarici həmlə və təcavüzlər altında məhv olub getmişlər.

Bir millət ictimai həyatının maddi və mənəvi qüvvələrini qorumağa çalışarsa, o millət getdikcə təkamül və ucalıq əldə edər, şan və şərəfini itirməz, dünya var olduqca da yaşayar…

Məqaləmizin başında fikirləri ilə müştərək olmadığım əziz yoldaşlarıma hər halda bir təşəkkür, həm də səmimi bir təşəkkür edirəm. Çünki onların müxalifətləri olmasaydı, mən də bu məqaləni yazmayacaqdım!..

*07 oktyabr 1907, №29*



***Mərhəmətdən yoxsul, insafdan məhrum, şəxsiyyətdən kasıb olan üçün dünyanın ən uca dəyəri sərvətdir. Bu xəstəliyə mübtəla olmuşlar, məsum körpə fəryadını eşitməz, beli bükülmüş ixtiyarları dinləməz, məzlumların, möhtacların, kimsəsizlərin və dərdlilərin dərdini görməzlər. Çünki, sərvət, şöhrət hərisliyi bəsirət gözlərinin önündə asılmış qəflət pərdələridir. Bu manea götürülmədən göz könlün elçisi və qəlbin həqiqətləri müşahidə pəncərəsi ola bilməz...***

# İRADƏ İNSANI




| ABDULLAH GƏNC

Ömrün hər mərhələsi inanılmaz nailiyyətlərin əldə edilmə fürsətilə doludur. Bu fürsətləri dəyərinə, zamanına görə istifadə edən səadətin feyzini alar, yerinə uyğun təqdir etməyən isə yersiz təhdidlərin məngənəsində əzilər. Dünyada var olmaq insanın əlində deyil. Amma həyatı necə yaşamaq, hansı prinsiplərə uyğunlaşdırmaq fərdin iradəsinə bağlıdır. İradə azadlığı, həyat məktəbinin fakültələrini, kainatın sirlərini, hansı dərəcədə bilməklə müəyyənləşir. Çünki insan iradəsilə imtahana girər, ömür kitabının ağ səhifələrini bu seçimə uyğun yazar. İradə imtahanı qəlbin vicdan məhkəməsində hesaba çəkilər və qiymət alar. Davamlı daxili hesabat, qəlb balansını yoxlama, nəzərləri bir elçi kimi ruha göndərmə, mənəvi sağlamlığa və iradə hürriyyətinə dəlalət edər. Daxili aləmə doğru dərinləşən, nəfs qalasının gerçək fatehinə çevrilər. Nəfsinin fatehi, iradəsini ümidlə bəslər, ruhla dəstəklər və zəka ilə qüvvətləndirər. Beləliklə qulun simasına vicdanın sirri həkk olunar. Sima, Rəbbin rəhman və rəhimliyinin təcəlla aynasıdır. Həmçinin bu sirr, təcəlla aynasında sahibinin kimliyini iqrar edir.





***Ağlın iradəsi də kiçik kainat olan insanın səadətinə vəsilədir. Səadət, sərvətin və mülkün varlığı-yoxluğu ilə ölçülməz. Əsl səadət ağıl sərvətinin toxumlarının qəlbin tarlasında əkilməsilə başlar. Qəlblə ağlın ittifaqı – vücud ölkəsində səadəti, daxili rahatçılığı meydana gətirər. Ağılın lüğətdəki mənası bağlamaqdır. Bədəni ruha, dünyanı kainata, kainatı qiyamətə və hər bir hadisəni səbəbə və səbəbləri də var edənə bağlayar. Kainatda iki varlığa ağıl verilib. Biri insan, digəri isə cinlərdir. Biri görünən bizlər, digəri isə metafizik aləmin məxluqları olan cinlərdir.***

İnsan qulluq üçün var edilib... Onun kiməsə, nəyəsə qulluq etməsi fitri tələbidir. Bu fitri tələb şəxsin potensial qüvvəsidir. Deməli qulluq əsnasında fərd daxili enerjisini, ömür yatrımını xərcləyir. Yüksək idealların gerçəkləşməsi yolunda səylərin, cəhdlərin səfərbər edilməsi, səadət feyzinin dadılması ancaq iradənin daxildən hürriyyəti ilə əlaqəlidir. Belə insanlar böyük işlər arxasınca gedər, bəsitlikdən uzaqlaşar, gəlişi-gedişi gözəl görünənləri deyil ruhu gözəl olanlara ümid bəslərlər.

Əgər iradə daxildən azad olmazsa, bütün planlar kağız üzərində qalar. İstənilən məsələləri reallaşdırmaq mümkün olmaz. Ona görə də iradənin var edilmə səbəbinin hikmətini də anlamaq yerində bir faktdır. Bu fakta önəm verilməzsə millət, xalq adına ediləcək çox proyektlər havada asılı qalar. Bəli, iradə imtahanının sirri aydın olmadan planlar kitablarda, kitabxanalarda, seminarlarda və konfranslarda dildən-dilə keçər ancaq nəzəriyyə olaraq qalar.

İradənin bağlı olduğu orqanlar üçdür. Maddi bədənimizə aid istəkləri təmin edən iradə,

*Nəfsin iradəsi – qəlbdən asılmış bir büt kimi sahibinin ona tapınmasını, ruh bədəni tərk edənə qədər tələb edər. Yer üzünün memarı kimi yaradılmış bir çox insanlar, bu "Büt"ün abidinə çevrilərlər. Qəlbinin gözləri pərdələnər, kainatın bütün gözəlliklərini xaos olaraq qəbul edər.*

bədən şəhərinin sultanı olan ağıla bağlıdır. İkinci iradə maddi və mənəvi dünyamızın vəhdətini daşıyan qəlbə məxsusdur. Üçüncüyə gəlincə o, bədənlə ruh arasında "nəfs"in meyillərinə tabedir.

İnsan ayaqlarından torpağa daha yaxındır. Yaxınlıq bir tərəfə ondan olan maddi vücudu bir gün geri istər və alar. Mənəvi aləmdən bədənimizə qonaq olan ruh isə insani zirvələşməsini, səmavilişməsini istər. Nəfsin iradəsi-istəyi həm bədəni, həm də ruhu rəzilləşdirməkdir. Deməli insan iradəsi deyərkən, bu istəklərin hansının ön plana çəkilməsi və onunla həyatını inşa etməsi diqqəti çəkər. Ürək xəritəsini və onun coğrafiyasını nəfs, ağıl yoxsa qəlb təyin edər?

Nəfsin iradəsi qəlbdən asılmış bir büt kimi sahibinin ona tapınmasını, ruh bədəni tərk edənə qədər tələb edər. Yer üzünün memarı kimi yaradılmış bir çox insanlar, bu "Büt"ün abidinə çevrilərlər. Qəlbinin gözləri pərdələnər kainatın bütün gözəlliklərini xaos olaraq qəbul edər.

Ağlın iradəsi də kiçik kainat olan insanın səadətinə vəsilədir. Səadət, sərvətin və mülkün varlığı yoxluğu ilə ölçülməz. Əsl səadət ağıl sərvətinin toxumlarının qəlbin tarlasında əkilməsilə başlar. Qəlblə ağlın ittifaqı vücud ölkəsində səadəti, daxili rahatçılığı meydana gətirər. Ağılın lüğətdəki mənası bağlamaqdır. Bədəni ruha, dünyanı kainata, kainatı qiyamətə və hər bir hadisəni səbəbə və səbəbləri də var edənə bağlayar. Kainatda iki varlığa ağıl verilib. Biri insan, digəri isə cinlərdir. Biri görünən bizlər, digəri isə metafizik aləmin məxluqları olan cinlərdir.

İradənin üçüncü qaynağı qəlbdir. Qəlbin istəyi fitridir. O, baxışları bərraqlaşdırır, ürəkləri bəşəri hisslərlə doldurur, ətrafdakılara sonsuz şəfqət və mərhəmətlə davranmağı tərcih edər. Fitri iradə insanı zirvələşdirərək, tarixin yükünü çiyinlərində daşıyanları göstərir, məkanın, zamanın bağrındakı qaranlıqları birər-birər işıqlandırır və cənnətin koridoruna gedən yolu seçir. Bu yolda ən təntənəli zəfəri insan ürəyini qazanmaqda izah edir. Belə ağıl idrak üfüqünün bir gününə – bir ayı, bir ilinə – qərinələri və bir ömrünə isə əbədi səadəti yerləşdirər.

İnsan daxili dünyasındakı güc mərkəzlərini hansı komandana verəcəyində tam sərbəstdir. İlk seçmə nəticəsində insan daxili potensialını, enerjisini o istiqamətə səfərbər edir.

Fitrətindəki həqiqəti seçən iradə insanları vətəni, milləti, yurdu üçün gecə-gündüz, payız-qış demədən ruhlarındakı cəsarəti bütün həyatları boyu həm haqqı, həm də xalqı məmnun etmək naminə qurban edərlər. Yollarındakı körpülər çöksə, səmalarındakı ulduzlar sönsə, nizamları pozulsa və pərişan edici səbəblər hər tərəfdən önlərinə tökülsə də, iradə insanlarının ümidləri, dağlar qədər nəhəng olaraq qalmaqdadır.



# VƏTƏNİN ÖVLADINA NİDASI



| MÜTƏRCİM

Misirdə nəşr olunan "Əl-məcəllətül-Osmaniyyə" qəzeti bu başlıqla məqaləyə ad verərək aşağıdakıları ifadə edir.

Əziz vətən bu yolda övladlarına hal dili ilə nida edir:

Əziz övladlarım! Nidamı eşidin, tövsiyəmi can kimi qorumaqla bərabər bu qorxunc yuxudan oyanın. Mən sizi belə yetim, səfil və qəflət çölündə heyran və sərgərdan görmək istəmədiyim halda, görəsən bu təəssüf doğurducu vəziyyətə sizin nəfsiniz, vicdanınız necə razı və qane olmuşdur.

Yoxsa nəfsiniz sizi aldatdımı? Bu yalan ağızlı nəfs sizi azdıraraq izzətdən sonra zəlilliyə, cənnətdən sonra cəhənnəmə razı etdimi? Kainatın xaliqinə and içirəm ki: hüquq qanunları və miras qalan vəzifələr aranızda tamamilə paymal oldu. Həqiqətən də siz açıq-aydın zəlalətdəsiniz. Təəssüflər olsun.

Başqa vətənpərvərlər görür ki, mən sizin məskən və vəteninizəm, səadətinizin səbəbi və həyatınızam. Bununla belə məni elə bir hala qoydunuz ki, mənim də sizin kimi digərləri yanında hörmətim, izzətim tamamilə yox oldu.

Sonunda hamımız əcnəbilər əlində əsir-yesir olduq.





***Düşdüyümüz bu fəlakətdən, çətin və şiddətli yaşamaqdan bizi tezliklə xilas etməyi, analıq naminə siz övladlarımdan rica edirəm. Bununla belə yenə də sizi qəflət yuxusunda görürəm. Nə vaxtadək bu qəflət, nə vaxtadək bu yuxu! Düşmənlər oyaqdır, ayıqdır. Bütün yer kürəsini ayıqlıq sayəsində, idarələri altına aldılar. Sizlər isə şüursuz bir halda yaşamaqdasınız. İnsanlıq şüurunuzu itirdiyinizdən, gözəlliklə çirkinliyi, yaxşı ilə pisi ayırd etməyə iqtidarınız yoxdur. Siz ziyandasınız, bölündünüz. Hamınız pərişan oldu. Dəstə-dəstə, fərd-fərd bölündünüz. Hər kəs öz həvai nəfsinə tabe olaraq, hidayət nurunu söndürdü.***

Görəsən nəfsiniz və vicdanınız ədalətdən sonra zülmə razı oldumu?

İnsaf əvəzinə cövr və sitəmə qane oldumu?

Allaha qəsəm olsun ki, siz sayca zalımlardan azsınız. İbrət nəzəri ilə və diqqətlə baxın! Feyz və bərəkət mənbəyi olan bağ və bağçalarım, ən məhsuldar tarla və otlaqlarım, cəhalətinizin qurbanı olaraq bəzisi əcnəbilərin malı və bəziləri də xəzan yarpağı kimi saralıb-soldu, paymal oldu. "Nə qəmli görünüş, nə hüznlü mənzərə!" Siz övladlarım, həm özünüzdən, həm də məndən qafil olduğunuzdan izzət sahibi olduğumuz halda zəlil, hür və sərbəst olduğumuz halda əsir olduq. Məhz töhmət və danlaqdan qorxmayaraq haqqı bəyan edib deyirəm ki: "Siz ziyan və xüsranda olanlardansınız. Vay olsun ziyanda olanlara!" Əcnəbilər sizi irs qalmış yerlərdən, tarlalardan, otlaqlardan istifadə edərək hər növ ləzzət və səadətdən məhrum qoydular. Kişilərlə qadınlar, hürlərlə əsirlər, zənginlərlə yetimlər, böyüklər və kiçiklər bir-birlərindən seçilməz oldu. İnsanlıq haqları unuduldu. Belə baş verən fəlakətlərə, təhlükələrə ibrət nəzəri ilə deyil, can çəkişən insan kimi baxırsınız. Baş-



16988
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

qa millətlər tərəqqi və inkişafa qədəm qoymaqda, sizlər isə geriyə doğru addımlayırsınız. Tərsinə tərəqqi edirsiniz və bəziniz hal dili ilə "hansı cəhənnəmə gedirik" deməkdən çəkinmirsiniz. Bu vəziyyətdə olduğunuz halda yenə də əksəriyyətiniz həqiqətdən agah deyilsiniz.

Əcnəbilər sərvət sayəsində bir-birlərinə yardım edirlər, dostluq və vəhdət dairəsi içərisində olub, cəmiyyətlərinin fərdləri bir bədən, bir əl kimi olub, maddi və mənəvi ehtiyaclarının qarşılanmasına çalışırlar. İndi sizləri şiddətli ittiham etməyə və bütün bəşəriyyətin nəzərində bədnam etməyə səy göstərirlər. İnsanlıq hüquqlarınızı kölgədə qoymaq istəyirlər. Buna insanlıq təhəmmül edərmi görəsən?

Fikir və zikrləri bu töhmətlər sayəsində sizi – aşağıların, aşağısına endirməkdir.

İstər işarə ilə istər açıq-aydın şəkildə olsun, edamınız üçün ittifaq və razılıq etmişlər.

Zülmət qoşunu cəhalət əsgəri sizi elə əhatə etmişdir ki, zülmlə ədaləti ayırd etməyə iqtidarınız qalmamışdır və məni hüznə qərq edərək, nalələr içərisində qoydunuz. Vüsətimi, qədr-qiymətimi, şan və şərəfimi itirməyə səbəb oldunuz. İndi bir atəş meydanına çevrildim, bir parça atəş oldum.

"İndi yanıb kül olan ulduzlardan heç bir fərqim yoxdur".

Düşdüyümüz bu fəlakətdən, çətin və şiddətli yaşamaqdan bizi tezliklə xilas etməyi analıq naminə siz övladlarımdan rica edirəm. Bununla belə yenə də sizi qəflət yuxusunda görürəm. Nə vaxtadək bu qəflət, nə vaxtadək bu yuxu! Düşmənlər oyaqdır, ayıqdır. Bütün yer kürəsini ayıqlıq sayəsində, idarələri altına aldılar. Sizlər isə şüursuz bir halda yaşamaqdasınız. İnsanlıq şüurunuzu itirdiyinizdən, gözəlliklə çirkinliyi, yaxşı ilə pisi ayırd etməyə iqtidarınız yoxdur. Siz ziyandasınız, bölündünüz. Hamınız pərişan oldu. Dəstə-dəstə, fərd-fərd bölündünüz. Hər kəs öz həvai nəfsinə tabe olaraq, hidayət nurunu söndürdü.

"Oyanın! " hər bir kəsə şər sirayət edərək günah və şər işlər etməklə məşğul oldu. Hər kəs fəsad və azğınlığına davam edərək boş və mənasız işlərindən usanmadı, həya etmədi və o işlərdən çəkinmədi. Bəlkə də öz tay-tuşlarından öz qürurunu yüksək tutdu və özlərinin yeganə qayəsi olan səadətdən olduqca uzaqlaşdılar. Yalan, böhtan, iftira və zəlillik kimi insanlığa yaraşmayan sifətlərə meyil edərək, başqalarının fəlakətinə səbəb olacaq çirkin əxlaqına kor-koranə təqlid etdilər və bu təqlidin fəlakətə səbəb olacağını anlaya bilmədilər.

Böyüklərimiz kiçiklərdən, zənginlərimiz fəqirlərdən uzaqlaşdı, güclülər zəiflərə yardım etmədi.

Ona görə də az bir zaman içərisində fəlakət meydanında avara və başsız qaldınız.

Allah eşqinə ittihad və dostluq edin. Qəflət yuxusundan ayılın bəlkə nicat tapasınız. Xətiblər, ədiblər, mətbuat nümayəndələri olan redaktorlar çox şeylər söylədilər, çox şeylər yazdılar. Halala halal, harama haram deyərək həqiqəti bəyan etdilər. Səy və cəhd göstərməyinizi dönə-dönə tövsiyə etdilər. Lakin qulaqlar eşitməkdən kar, gözlər də görməkdən kor olduğundan o gözəl sözlər səmərəsiz qaldı. Fəzilət sahibləri işarə, alimlər də nida ilə dedilər ki:

Fəzilətli və gözəl əxlaqa tabe olun və çirkin xislətlərdən çəkinin. Yenə də sizlərə təsir etmədi, ruhunuza nüfuz etmədi. Sizə deyirəm ki:

«نعيب زماننا و العيب فينا»
«وما لزماننا عيب سوانا»

Zamanəmizdə eyib axtarırıq, halbuki eyib zamanda deyil bizdədir.





Zamanəmizin eyib və qüsuru biz özümüzük. Bizdən başqa zamanımızın eyib və qüsuru yoxdur.

Həyat ibrət dərsi verməklə, fikirlərimizi arındıran və vicdanlarımızı saflaşdıran bir həkim kimidir. Sizi Kəbənin Rəbbinə and verirəm, daha yetər, ayılın! Ayılın! Qəflət yuxusunda yatanlardan olmayın. Və axırıncı nəsihətim budur.

Əziz övladlarım! Bu qədər qəflət yetər.

Aləmdən bir ibrət alın. Məni və özünüzü bu təhlükədən xilas edin. Onda sizin nəsibiniz olaram. Siz də bəlalardan xilas olmaq yolu taparsınız.

*"Füyuzat" №5, 18 dekabr 1906*



# ŞƏMS TƏBRİZİ VƏ MÖVLANA










*Eşq gəldi. Damarımda, dərimdə qan kəsildi.*
*Məni özümdən ayırdı, Sevgili ilə doldurdu.*
*Bədənimin bütün hissələrini Sevgili bürüdü.*
*Məndən qalan təkcə bir ad, qalan nə varsa daim O oldu.*

| MUXTAR CƏFƏRLI

İlahi eşqlə dolub daşan, həqiqət günəşi Şəms Təbrizi.

Bir yerdə qalmayıb, çox yerlər gəzdiyi üçün ona Şəmsi-pərəndə, yəni – uçan Şəms deyirdilər. O da Mövlana kimi böyük bir Haqq aşiqi idi. O da çoxlu ölkələr gəzmiş, çoxlu alim və şeyxlər görmüşdü. Lakin özünün ifadə etdiyi kimi heç birində axtardığını tapmamışdı.

Daima "Allahım! Örtülü dostlarından birini mənə göstər!" – deyə dua edərdi.

Yuxusunda da ona istədiyinin Anadolu ölkəsində Bəhaəddin Vələdin oğlu Mövlana Cəlaləddin Rumi olduğu ilham edilmişdi.

Nəhayət bir gün Mövlana tələbələri ilə Səlcuqilər karvansarayının önündən keçirdi. Qapının önündə o vaxta qədər heç görmədiyi, qiyafəsindən yad olduğu bilinən bir adamı gördü və salam verib yoluna davam etdi. Mövlana öz-özünə "Bu yad adama bənzəyir. Burada belə bir şəxsi heç görməmişəm. Nə qədər də nurlu üzü var", – deyə düşünər-

kən birdən atının yüyənini bir əlin tutduğunu gördü. Mövlana "Buyurun!" - dedi. O şəxs də "Bir sualım var. Həzrəti Muhəmməd (s) böyükdür, yoxsa Bəyazid Bistami?" "Bu necə sualdır. Əlbəttə ki, Həzrəti Muhəmməd (s) böyükdür. Həzrəti Muhəmmədlə (s) Bəyazidi müqayisə etmək olarmı? Bütün aləm və Bəyazid onun hörmətinə yaradılmışdır."

"Yaxşı bəs nə üçün Həzrəti Muhəmməd (s) "Ya Rəbb! Biz Səni layiqi ilə tanıya bilmədik", dediyi halda Bəyazid Bistami "Subhani! Mənim şanım nə ucadır!" - demişdir."

Mövlana dərhal belə cavab verir:

"Bəyazidin qəlbi o qədər geniş olmadığı üçün İlahi feyzlərə dözməyib təcəlli ilə dolub daşdı. Həzrəti Muhəmmədin (s) mübarək qəlbi isə elə bir dərya idi ki, ona nə qədər mərifət, İlahi eşq təcəlli etsə də onu öz içinə alar, əhatə edərdi. Hətta daha çox istəyib "Ya Rəbb! Verdiyin bu nemətləri daha da artır" - deyərdi."

Bu cavab qarşısında heyrətə düşən Şəms Təbrizi "Allah!" - deyərək özündən getdi. Mövlana dərhal atından enərək Şəmsi qucaqladı.

Beləcə bir-birini axtaran iki İlahi aşiq, iki qütb, iki məna dənizi, iki nur qovuşdular.

Mövlananın oğlu Sultan Vələd belə anladır:

"Gözlənilmədən Şəms gəlib atamla görüşdü. Atamın kölgəsi Onun nurundan yox oldu. Şəms Təbrizi atama məşuqluq halından, ilahi mərifətdən, Allahın zat və sifətlərinə aid incə biliklərdən bəhs edir, atam da bunları böyük bir şövq içində dinləyirdi. Əvvəllər hamı atama tabe olardı, indi isə atam Şəmsə tabe idi."

Şəms Mövlanaya ayna oldu. Mövlana da Şəmsin aynasında gördüyü öz gözəlliyinə aşiq oldu. Mövlana bir eşq şərabı, Şəms də Ona bir qədəh oldu. Bir sözlə Şəms Mövlananın içində ataş yandırdı, lakin qarşısında elə bir vulkan püskürdü ki, alovundan özü də yandı.

Şəmsin mənəvi cazibəsi Mövlananı elə bürümüşdü ki, nə məsciddə xütbə oxumağa gedir, nə mədrəsədə dərs verir, nə də digər insanlara vaxt ayıra bilirdi.

Bəzi insanlar bu iki ilahi dostun söhbətlərindəki sirri dərk etməkdən aciz olduqları üçün şayiələr yaymağa başladılar. Şəms haqqında uyğun olmayan sözlər söylənməyə başlandı. Deyirdilər ki, "bu şəxs Konyaya gəldikdən bəri Mövlana bizdən tamamilə uzaqlaşdı. Onun nə haqqı var ki, Mövlananı bizim əlimizdən alsın".

Aradan bir müddət keçdi. Bu söz-söhbətlər daha da yayılmağa və şiddətlənməyə başladı. Şəms Mövlananı tələbələrinin görməyinə izn vermədiyində hadisələr daha da kəskinləşdi.

Bir gün Vəzir Nüsrəddin öz sarayında bütün alim və təsəvvüf əhlini bir mərasimə toplamışdı. Mövlana ilə Şəms də oraya gəlmişdilər. Orada çıxış edən hər bir alim ya keçmiş alimlərin sözünü, ya da övliyalardan bir kəramət danışırdı.

Onlara diqqətlə qulaq asan Şəms dözə bilməyib dedi:

"Nə vaxta qədər başqalarının sözü ilə zaman keçirəcəksiniz? Nə vaxt "qəlbim Rəbbimdən rəvayət etdi" deyəcəksiniz? Nə üçün başqalarının əsası ilə gəzirsiniz? Haradadır sizin sözləriniz? Haradadır sizin əsərləriniz? Sizin öz qəlbinizin sözü yoxdurmu?"

Bu hadisə onların qısqanclığını bir az da artırdı.

Hadisələrin cərəyanından Şəms Konyada qala bilməyəcəyini anladı. 1246-cı ildə Şəms gözlənilmədən çıxıb getdi.







Şəmsin ayrılığından dərin iztiraba düşən Mövlana onun ayrılıq həsrəti və məhəbbəti ilə yanıb qovrularaq qəsidələr söyləyirdi.

"Ey könlümdəki nur, gəl! Ey qəlbdə arzu olunan, gəl! Ey sevgi və səmimiyyətimi isbat edən, gəl!..

Sən uzaq və yaxın olduğunda günəş kimisən

Ey uzaqdakılara yaxın olan, gəl!"

"Ondan bir işarə bildirənə, ondan bir şey söyləyənə müjdə olaraq canımı verərəm" deyirdi.

Beləcə aylar keçdi. Fitnə ortadan qalxdı. Şəmslə düşmənçilik edənlər peşman olaraq Mövlananın yanına gəlib üzr istədilər. Həzrəti Muhəmməd (səlləllahu əleyhi və səlləm) əxlaqı ilə əxlaqlanan Mövlana da onları bağışladı. Həzrəti Muhəmməd (səlləllahu əleyhi və səlləm) də Taifdə ona əziyyət edənləri əfv etmişdi. Mövlana da oğlu Sultan Vələdi Şama göndərməyə qərar verdi.

Sultan Vələd iyirmi nəfərlik adamla yola çıxır. Şam şəhərinə gəlib Şəmsi tapır. Ondan sonra baş verən hadisələri, Mövlananın onu Konyaya dəvət etdiyini, həm də bu fitnəni törədənlərin tövbə etdiklərini və Mövlanadan üzr istədiklərini söyləyir.

Şəms "Gəlməyimiz üçün peyğəmbər əxlaqlı Mövlananın dəvəti bizə yetərlidir" - deyir.

Beləliklə Şəms Təbrizi Konyaya getməyə qərar verdi. Bir neçə gündən sonra yola çıxdılar. Sultan Vələd Şəms Təbrizini atına mindirib özü də onun arxasınca piyada olaraq gedirdi. Şəms Təbrizi Sultan Vələdin ata minməsi üçün nə qədər israr etdisə də O:

"Sultanın yanında xidmətçisinin ata minməsi doğru olmaz. Biz xidmətçilərin ağalarının arxasında getməklərinin lazım olduğunu öyrəndik" deyərək ata minmədi.

Konyaya yaxınlaşdıqlarında Mövlanaya bir nəfərlə xəbər göndərdi. Mövlana əlində nəyi var idisə bu xəbəri gətirən müjdəçiyə verdi. Bununla da kifayətlənməyib yanındakılara "daha nəyimiz varsa verin" dedi və böyük bir sevinc içində Onu qarşılamağa çıxdılar.

1247- ci ildə yenidən bu iki dost görüşdülər və Mövlananın mədrəsəsinə gəldilər. Orada bir kənara çəkilib dərin söhbətlərə başladılar. Lakin yenə də fitnələr qaynamağa başladı.

Mövlana qapısından içəri girməyənlərin qısqanc hərəkətlərindən, dedi-qodularından narahat olan Şəms Sultan Vələdə belə dedi:

"Görürsənmi, haqqımda necə də sui-zənn edirlər. Yenə məni Mövlanadan ayırmaq istəyirlər. Amma bu dəfə elə gedəcəyəm ki, heç kəs harada olduğumu bilməyəcək. Məni axtarmaqdan aciz qalacaqlar. Beləcə illər keçəcək heç kəs mənim izimi-tozumu belə görməyəcək".

Günlərin bir günü Şəms gözlənilmədən yoxa çıxdı.

Mövlana Şəmsi çox axtardı. Onu tapmaq üçün iki dəfə Şam şəhərinə getdi. İki il Onu axtardı.

Bir gün bir nəfər ona "Şəmsi gördüm" dedi. Mövlana əlində olanları ona verdi. Onu tanıyan bir şəxs də "O Şəmsi görmədi, yalan söyləyir", deyincə Mövlana:

"Ona verdiklərim Şəmsin yalan xəbərinin müjdəsi üçün idi. Onun həqiqi xəbərini gətirənə canımı fəda edərəm" - deyə cavab verdi.

Lakin Onu tapmaq ehtimalı qalmadığında geri qayıtdı.



***Ey insan! Sən Allah kitabının bir nüsxəsisən. Sən kainatı yaradan qüdrətin gözəlliyinin bir aynasısan. Dünyada nə varsa səndən kənarda deyil.***

Mövlana bundan sonra yenidən tələbələrinə dərs verməyə, məscidlərdə xütbə oxumağa başladı. Səlahəddin Zərkubi, Hüsaməddin Çələbi kimi vəlilər yetişdirdi.

Nəhayət, 1273-cü il Mövlana xəstələndi və bu fani aləmdən əbədiyyət aləminə köçdü. Cənazə namazını Şeyx Sədrəddin qılmaq üçün irəli keçdi. Lakin huşunu itirərək yıxıldı. Namazı Qazi Siracəddin qıldırdı.

Bütün Konya matəmə bürünmüşdü. Cənazə çölə çıxarıldığında sanki qiyamət qopdu. Müsəlmanlarla bərabər xristian, yəhudi, bütün millət və irqdən olan insanlar da bir-birinə qarışmışdı. Müsəlmanlardan bəziləri "Müsəlman olmayanlar kənara çəkilsin" dediklərində bir rahib "Bu din sultanı sizin sevdiyiniz olduğu kimi bizim də sevdiyimizdir. Biz Həzrəti İsa, Həzrəti Musa və bütün peyğəmbərlərin həqiqətlərini onun sözlərindən anladıq. Öz kitablarımızda oxuduğumuz peyğəmbərlərin əxlaq və davranışlarını onda gördük."

Mövlananı atasının məzarının yanında dəfn etdilər. Mövlana ölüm gününü "Şəbi-əruz, yəni düyün gecəsi" adlandırmışdı. Ona görə də heç kəsin yas tutmamasını vəsiyyət etmişdi.

"Öldüyüm gün tabutumu çiyinlər üzərində gördüyün zaman məndə bu cahanın dərdi var sanma! Mənim üçün ağlama! Ah, vay etmə! Şeytanın tələsinə düşərsənsə o zaman ah, vay et!"

"Məzar Cənnət qapısının pərdəsidir. Batmağı gördün, indi doğmağı da seyr et! Günəş və aya batmaqdan nə ziyan gələr?"

"Sənə batmaq kimi görünər, lakin o əslində yenidən doğmaqdadır. Məzar isə həbsxana kimi görünər, lakin əslində canın həbsdən qurtuluşudur."

Torpağa hansı toxum əkildi ki, o bitmədi? Nə üçün insan toxumuna gəlincə bitməyəcək sanırsan?









*Mən yurdumu andıqca dərindən,*
*Qəlbim qopuyor sanki yerindən...*

* Almas İldırım





Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.

* Azərbaycan atalar sözü

Vətən viran da olsa, cənnətdir.

* Azərbaycan atalar sözü

Vətən borclu deyildir, biz borcluyuq vətənə.

* B.Vahabzadə

Ayrılan qüvvələr birləşməlidir,
Vətən bir torpaqda yerləşməlidir.

* S.Vurğun

Vətənə məhəbbət mücərrəd anlayış deyil, o, təşkilatçılıq, inkişaf və mədəniyyət tələb edən real mənəvi qüvvədir.

* L.Tolstoy

Dünya tarixində ən böyük hünər və qəhrəmanlıqlar Vətən naminə edilib.

* J.J.Russo

Vətən və torpaq sevgisi ata-ana sevgisi qədər təbii və əzəlidir.

* J.Mestr

Millətin əzəməti onun hər bir nümayəndəsində öz əksini tapmalıdır.

* Y.Lents

Sülh zamanı vətən yolunda göstərdiyiniz xidmətlər, müharibə zamanı vətən üçün nələrə qadir olacağınızı göstərir.

* Q.Lebon

O torpağı ki, qoruya bilmədin, onu əkib-becərməyə dəyməz, o torpağı ki, əkib-becərmədin, onu qorumağa dəyməz

* Anar

Öz vətənini sevməyən insan heç kəsi və heç nəyi sevə bilməz.

* O.Balzak

Öz vətəninə mənsub olmayan adam bəşəriyyətə də mənsub deyil.

* V.Belinski

Başqa xalqların haqlarını qəsb edən xalq öz azadlığına qovuşa bilməz.

* İ.Bentam

Elə cinayət var ki, bağışlanmır – o, Vətənə xəyanətdir.

✶ Ə.Bəhmənyar

Yuyulması mümkün olmayan bir cinayət varsa, o da vətənə xəyanətdir.

✶ P.Buast

Ey Vətən, ey könül pərəstarı,
Var ümidim qüsura baxmıyasan.
Səni bu hala saldı qəflətimiz.

✶ H.Cavid

Vətən uğrunda ölüm həyatın davamıdır.

✶ C.Cambul

Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın.

✶ H.Əliyev

Əsl insanın vəzifəsinin yarısı vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir.

✶ V.Hüqo

Bir ölkənin böyüklüyü, o ölkənin ərazisinin böyüklüyü ilə deyil, insanların mədəni səviyyəsi ilə qiymətləndirilir.

✶ J.Kolbert

Torpaq, əgər uğrunda ölən varsa, vətəndir.

✶ C.Kuntay

Çox şəhid verən və çox fədakarlıq göstərən bir ölkə istədiyi səviyyəyə də çata bilər.

✶ M.Qandi

Öz vətənindən üz döndərmiş adam, öz vicdanından üz döndərmiş olur.

✶ A. və S.Qolon

İnsanın öz vətəninə fayda vermədən ölməsi, çox acınacaqlıdır.

✶ K.Lyuis

Mən ya vətənimin rifahı naminə yaşamalı, ya da onunla birlikdə məhv olmalıyam.

✶ M.Sesiro

Vətənə olan borcunuzu qaytarmaq üçün hər şeyinizi fəda etməyə borclu olduğunuzu, heç vaxt unutmayın.

✶ T.Yunq





***Keçmişimizi xatırladan başqa xatirə, yaddaşları təzələyən, ruhlara zövq verən bizi əcdadımızın əl işləri, alın tərləri ilə qovuşduran körpülərdən biri. Qədimləşdikcə sevilən, yaşlaşdıqca vicdanlara daha çox təsir edən, tökülən kərpicləri ilə hüznlənən və babalarımızın qoxusunu duyduraraq tarix səhifəmizdən bir parça olduğunu söyləyən qala divarları...***

***Şanlı istiqbalın, gələcək ümidlərin, ağlagəlməz nailiyyətlərin toxumları zaman tarlasına daima atılmalı və sahib çıxmalıdır...***

# Şairlərin dilində VƏTƏN



MƏMMƏD ARAZ

Azərbaycan – qayalarda
bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı
vəsf eləyərək,
Azərbaycan dünyasından
baxar dünyaya...
Azərbaycan – mayası nur,
qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" – deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

MUSA YAQUB

Burda hər meşənin min bir ağacı,
Burda hər ağacın yamyaşıl tağı,
Burda hər tağ üstə sarmaşıq saçı,
Hər saçın küləkdən darağı vardır.

Burda hər budağın şeyda bülbülü,
Burda hər bülbülün qönçə bir gülü,
Burda tər qönçənin yaşıl bir tülü,
Hər tülün xırdaca saçağı vardır.

Burda hər yamacın çiçəkdir daşı,
Burda hər çiçəyin şehdir göz yaşı,
Burda şeh damlası bir üzük qaşı,
Hər qaşın qızılı qurşağı vardır.

Burda sərər düzə lalələr xalı,
Burda hər xalının qara bir xalı,
Hər xalda şirin bir şair xəyalı,
Burda hər xəyalın oylağı vardır.

Burda qayaların daşdır suvağı,
Burda hər daş üstə qartal caynağı,
Caynaqlı hər daşın bir buz bulağı,
Burda hər bulağın qonağı vardır.

Harda bu saydığım gözəllik olsa,
Orda Azərbaycan torpağı vardır.





ABBAS SƏHHƏT

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, vətənimdir, vətənim.
Məni xəlq eyləmiş əvvəlcə xuda,
Sonra vermiş vətənim nəşvü nüma.
Vətənim verdi mənə nanü nəmək,
Vətəni, məncə, unutmaq nə deməк?!
Anadır hər kişiyə öz vətəni:
Bəsləyib sinəsi üstündə onu.
Südüdür kim, dolanıb qanım olub,
O mənim sevgili cananım olub,
Saxlaram gözlərim üstə onu mən.
Ölərəm əldən əgər getsə vətən.
Vətənin neməti nisyan olmaz,
Naxələflər ona qurban olmaz.
Vətən – əcdadımızın mədfənidir.
Vətən – övladımızın məskənidir.
Vətənin sevməyən insan olmaz.
Olsa, ol şəxsdə vicdan olmaz.





MƏMMƏD ARAZ

Ayağa dur, Azərbaycan!
Nə yatmısan qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri biz hər şeyi bölə billik,
Səndən qeyri biz hamımız ölə billik.
Bu, Şəhriyar harayıdır,
Bu, Bəxtiyar harayıdır.
Ayağa dur, Azərbaycan!
Bunu sənə zaman deyir,
Məzarından baş qaldıran baban deyir:
– Nər oğlu nər, səninləyəm!
Səninləyəm, silah tutan,
Külüng tutan, yaba tutan,
Kəsöy tutan, nişanlı ər, səninləyəm!
Səninləyəm, qız atası,
Hanı nərən, hanı səsin?
Hanı andın?
Yoxsa sən də yatmışlara, batmışlara,
Qeyrətini satmışlara xırdalandın?
Gözünü sil, Vətən oğlu, ayağa qalx!..
Oyat bizi, ey Yaradan: səninləyəm!
Ya birmərrə yatırt bizi,
Ya birmərrə oyat bizi,
Ya yenidən yarat bizi!
Ey Yaradan səninləyəm!
Səninləyəm, yatmış vulkan,
Səninləyəm!
Ayağa dur, Azərbaycan,
Səninləyəm!..




*Sevginin, şəfqətin, mərhəmət hissininin, insanlığın kölə olduğu, kiçildiyi bir dövrdə bizi – bizə qaytaran, şəfqəti içimizə dolduran, sevgini, mərhəməti qəlbimizə hopduran – Ramazan ayına elə ehtiyacımız var ki...*





*Ruhumuzla danışan, qəlblərimizi təmizləyən mübarək Ramazan ayını ilk günündən dərk etsəydik, gözümüzün yaşı qurumaz, onbir ayımızın xətalarını, günahlarını dərk edərdik, ağlayardıq. Elə ağlayardıq ki, Rəbbimiz göz yaşlarımıza baxar, mələklər ətrafımızda səmimi göz yaşlarımızı götürmək üçün dolanardı.*

*Səmimi göz yaşlarımızı yerə tökə bilsəydik, gül bitərdi, gülüstan olardı.*

*Səmimi göz yaşlarımızı bu ayda dünyamıza, vətənimizə səpə bilsəydik, gülüstan olardı.*

*Onbir ayda bir olardıq. Onbir ayda düz olardıq. Onbir ayda bütöv olardıq.*

| M.TEHRANOĞLU

Ramazan Allah-Təalanın bizə ehsan etdiyi böyük bir rəhmət və lütf ayıdır. O gəlişi ilə nur və feyz dolu günləri gətirən, iç dünyamızı mənəvi həyatla bərəkətləndirən, dünyanı cənnətdən axan bir nurani hava ilə dolduran, mələkləri möminlərin ətrafına toplayan, Rəbblərindən salam və məğfirət gətirən bir aydır.

Ramazanın mənası payızın əvvəlində yağıb, yer üzərini tozdan təmizləyən, yağış deməkdir. Bu yağış yer üzünün kir və tozlarını təmizlədiyi kimi bizim də bir illik günah və kirlərimizi təmizləyər.

Digər bir mənası da günəşin şiddətli hərarətindən daşların qızması mənasındadır. Bu qızmar daşların ətrafındakı şeyləri yandırıb yox etdiyi kimi Ramazan ayı da möminlərin günahlarını yandırıb yox edər.

Hər il mübarək Ramazan ayı dünyamızı şərəfləndirərək, bizi rəhmət, bərəkət və məğfirətlə müjdələyir. Qəlblərimizi Qurana açmaq,

***Ramazan ayı özümüzə qayıtmağımız, düşünməyimiz, düşünüb-düşünüb göz yaşı töküb ağlamağımız, ağlaya-ağlaya təmizlənməyimiz, dərk etməyimiz, təfəkkür etməyimiz, yardımlaşmağımız, bir-birimizin əlindən tutmağımız üçün Allahın bizə bir hədiyyəsi, lütfü və rəhmətidir...***

ruhlarımızı Quranla aydınlatmaq, bizi Quranla taclandırmaq və bizi göydə mələklərin belə qibtə edəcəyi bir camaat etmək üçün təşrif gətirir.

Övladını görməyən bir ananın onu gördüyü zaman ona şəfqətlə sarılması kimi on bir aylıq həsrətdən sonra gəlib, şəfqətli bir ana kimi günah və qüsurlarımıza baxmayaraq, bizi qucaqlayıb bağrına basır.

Ramazan ayların sultanı, könüllərin dərmanı, vəhyin nazil olduğu, gunahların xəzəl kimi töküldüyü, rəhmət qapılarının axıra qədər açıldığı, bir ildir yolunu gözlədiyimiz mübarək bir aydır.

Ramazan içində rəhmətin, bağışlanmağın, əzabdan qurtulmağın və cənnətlə müjdələnməyin olduğu bir ibadət ayıdır.

Ramazan gəlişində bir deyil, minlərlə rəhmət olan, zaman içində xususi bir zamanın, məkan içində xususi bir məkanın olduğu bir aydır.

Ramazan Allaha dua edərək hər əl və könül açanın və tövbə edənlərin qəbul edildiyi, bənzəri olmayan bir aydır.

Ramazan günahlardan təmizlənmək və rəhmət ilə qucaqlaşmaq istəyənlərin ayıdır.

Ramazan Allaha yaxınlaşmaq üçün fürsət axtaranların ayıdır.

Ramazan dünyamıza, könlümüzə, gündüzümüzə, gecəmizə ilahi rəhməti leysan kimi yağdıran bir aydır.

Ramazan Allah Təalanın qullarına sonsuz rəhmətinin ən geniş təcəllilərini göndərdiyi bir aydır.

Ramazan Quranda müjdələnən, Allah Rəsulunun (səllallahu əleyhi və alihi vəsəlləm) dilində yad edilən müqəddəs və mübarək bir aydır.

Onun gəlişi ilə bütün könüllər şəfqət və mərhəmətlə dolur, comərdlik və fədakarlıqlar onunla zirvələrə ucalır.

Ağlayan yetimlər, inləyən kimsəsizlər və möhtac könüllər onunla gülür, onunla bayram edirlər. "Kaş ki, hər gün Ramazan olsun! Kaş ki, bu gül üzlü heç getməsin" – deyə hüznlənirlər.

Onunla görüşmək və onunla yaşamaq üçün nə qədər aşiqlər, sevənlər günləri sayır və həsrəti ilə yanırlar. Xəstə olanlarına "Oruc tutmaq xəstəliyiniz üçün təhlükəli ola bilər" deyildiyində, "Əslində oruc tutmadığım zaman ölərəm" qarşılığını verirlər.





Bu ayda hər qul bir ibadət insanına, Quran bülbülünə, səcdə qəhrəmanına çevrilir.

Bu ayda unudulan qapılar çalınır, axtarılmayan dostlar axtarılır, küsənlər barışır, yetimlərin başı oxşanır, yer və göy rəhmətlə silkələnir, hər yanda Cənnət əsintiləri əsir.

Ən fəzilətli Quran tilavəti bu ayda oxunandır. Ən fəzilətli zəkat və sədəqə bu ayda veriləndir. Ən fəzilətli oruc bu ayda tutulandır. Ən fəzilətli dua bu ayda edilən duadır.

Bu ay Cəbrail əleyhissalamın hər gecə yer üzərinə enərək Peyğəmbərimiz səllallahu əleyhi və alihi vəsəlləmlə qarşılıqlı Quran oxuduğu bir aydır.

Ramazan ayı başladığında Rəsulullah (səllallahu əleyhi və alihi vəsəlləm) belə buyurardı:

"Bərəkət ayı olan Ramazan gəldi. Onda Allahın rəhməti sizi əhatə edər. O ayda bol-bol rəhmət enər. Günahlar bağışlanar. Dualar qəbul olar. Allah sizin yaxşılıq və ibadətlərinizdə bir-birinizlə yarışdığınıza baxıb mələklərinin yanında fəxr edər. Elə isə ibadətlərinizlə özünüzü Allaha sevdirin. Əsl bədbəxt isə bu ayda Allahın rəhmətindən nəsibini almayandır."

Ramazanın sayəsində vücudumuzdakı hər bir orqanın əmanət olduğunu anladıq. Gözlər harama baxmaqdan, dillər yalan danışmaqdan, qulaqlar çirkin sözlər eşitməkdən bu ayda uzaqlaşdı.

O heç bir günə və heç bir aya bənzəmir. Zaman üstü zaman, məkan üstü məkandır. Onun cənnətə qədər gedib çıxan ətri, oruc və ibadətlərində saysız-hesabsız cənnət meyvələri və hədiyyələri vardır.

Ramazanda məscidlərimiz və evlərimiz Quran nuru ilə aydınlanır. Bu ilahi aydınlıq da möminləri mənəvi zövqlərə qərq edir.

Ramazan sadəcə süfrələrə bolluq deyil, ruhlara da dərinlik qazandırır. Ramazan səadət əsrindən əsintiləri bu günə gətirən və bizə hiss etdirən bir aydır.

Bir hədisdə Salman Farisi Həzrəti Peyğəmbər səllallahu əleyhi və alihi vəsəlləmin Şaban

***Allah Rəsulu (s) buyurmuşdur: İnsanlar Ramazan ayının hikmətini anlasaydılar, bütün ayların Ramazan olmasını istəyərdilər.***



ayının son günlərindəki bir xütbəsində insanlara xitab edərək belə buyurduğunu rəvayət edir:

"Ey insanlar! Böyük və mübarək bir ay yaxınlaşdı. Kölgəsi başımızın üstünə düşdü. Bu elə bir aydır ki, içində min aydan daha xeyirli olan Qədr gecəsi vardır. Allah o mübarək ayın gündüzlərində oruc tutmağı və gecələrində nafilə namazları qılmağı buyurdu. Bu ayda kiçik və ya böyük xeyir bir əməl edən insan digər aylarda bir fərz əməl etmiş kimi savab qazanar. Bu ayda bir fərzi yerinə yetirmək, digər aylarda yetmiş fərz kimidir. Bu ay Allah üçün aclıq və susuzluğun, itaət və ibadətin məşəqqətlərinə səbr və dözüm ayıdır. Səbrin qarşılığı da cənnətdir. Bu ay yardımlaşma ayıdır. Bu ay möminlərin ruzisini artıran aydır. Kim bu ayda oruc tutan bir möminə iftar etməyə bir şey verərsə, etdiyi bu iş günahlarının bağışlanmasına və cəhənnəmdən qurtulmasına səbəb olar. Oruc tutanın savabından da heç bir şey azalmadan onun qədər savab qazanar.

Səhabələrdən beziləri:

"Ya Rəsulallah! Hamımızın oruc tutana iftar verməyə imkanı yoxdur" dediklərində Rəsulullah (səlləllahu əleyhi və alihi vəsəlləm):

"Allah bu savabı bir tək xurma ilə, bir az su ilə, bir qurtum süd ilə oruc tutan möminə iftar etdirənə də verər" – deyə buyurdu.

Sonra xütbəsinə belə davam etdi:

"Bu ayın əvvəli rəhmət, ortası məğfirət, axırı da cəhənnəmdən qurtuluşdur.

Bu ayda kim işçi və xidmətçisinin işini yüngülləşdirərsə, Allah da onu əfv edər və cəhənnəmdən uzaqlaşdırar.

Ona görə də bu ayda söyləyəcəyim bu dörd şeyi artıqlaması ilə etməyə çalışın. Bu dörd şeydən ikisi ilə Rəbbinizi razı edərsiniz, digər ikisindən isə heç bir zaman ayrı qalmazsınız.

Rəbbinizin razılığına səbəb olan şeylərdən biri kəlimeyi-şəhadəti oxumağa davam etməyiniz, digəri də Allahdan bağışlanmaq diləməyinizdir.

Digər iki şeydən biri Allahdan cənnəti istəmək, digəri də cəhənnəmdən Allaha sığınmaqdır.

Hər kim oruc tutan bir şəxsə bir qurtum su verərsə, Allah da ona mənim məhşərdəki hovuzumdan elə bir su içirdəcəkdir ki, cənnətə girincəyə qədər bir daha susuzluq çəkməyəcəkdir."

Ənəs ibn Malik Allah Rəsulundan (səlləllahu əleyhi və alihi vəsəlləm) belə rəvayət edir:

"Əgər Allah Təala yer və göylərə danışmaq izini versəydi, onlar Ramazan ayında oruc tutanları cənnətlə müjdələyərdilər."

Ramazan ayında baxışlarımız, eşitməyimiz, gəzməyimiz, göz yaşımız, gülüşümüz, ziyafətimiz, salamlaşmağımız, gündüzümüz, gecəmiz, sevincimiz, dərdimiz duadır. Anlasaq da, anlamasaq da aldığımız hər nəfəs belə duadır. Bu baxımdan Ramazan ayı dua ayıdır.

Ramazan orucunu tutmaq vəfa duyğusunun təzahür etdiyi ən gözəl ibadətdir. Çünki o Allahla qulu arasında bağlanmış bir əhddir.

Qurani Kərim bu ayda nazil olmağa başladığı üçün Ramazan Quran ayı, Həzrəti Muhəmməd səlləllahu əleyhi və alihi vəsəlləmə bu ayda peyğəmbərlik verildiyi üçün Ramazan Rəsulullah ayı və bu ayda Allah Təala qəzəbini ortadan qaldırıb, rəhmətini təcəlli etdirdiyi üçün Ramazan Allah ayıdır deyə bilərik.

Ey rəhmət günəşi, ey Quran ətirli, ey Cənnətin Rəyyan qapısının baş tacı, ey böyük günah sahiblərinin bağışlanmasına vəsilə olan gül ətirli, gül üzlü, gülər üzlü Ramazan!

Bizi bu dünyada tərk etmədiyin kimi axirətdə də tənha qoyma! Bizə şəfaətçi ol!





Rəbbimizin hüzuruna çıxanda "Allahım! Qulların səni və sənin Rəsulunu sevir. Mənə də hörmət və ehtiram göstərirlər. Duaları dillərindən əksik olmur" deməyini istəyirik.

Allaha səmimi qəlblə yönələrək həm özümüz, həm ölkəmiz, həm millətimiz, həm də bütün insanlıq üçün yardım istəyirik.

Allahım bu ay xatirinə, Həzrəti Muhəmməd (səlləllahu əleyhi və alihi vəsəlləm) və onun Əhli-beyti xatirinə həqiqi dostlarına verdiyin vədlərdən bizə də pay ver! Sənin yolunda xidmət edənlərə lazım bildiyini bizə də lazım bil! Bizə də sənin yolunda xidmət etməyi nəsib et!

Amin!




***(Ey Rəsulum!) Qullarım Məni səndən soruşduqda söylə ki, Mən (onlara) yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Qoy onlar da Mənim dəvətimə uysunlar və Mənə iman etsinlər ki, bəlkə doğru yolu tapalar.***

***Əl-Bəqərə, 186***

# BİR ELMİ KƏŞFİN SEVİNC VƏ AĞRILARI



MÖHBƏDDİN SƏMƏD

1896-cı ilin yanvarında Avropa və Amerika üzərindən sürətlə ötüb keçən, özü də tufanı xatırladan bir sensasiyalı qəzet xəbəri az müddət ərzində bütün Yer kürəsini bürüdü. Həmin sensasiyalı xəbərdə Vyusburq universitetinin professoru Vilhelm Kornard Rentgenin dünya üçün yeni olan elmi kəşfindən söhbət açılırdı. O vaxtlar Yer kürəsində elə bir qəzet və jurnal tapılmazdı ki, bu kəşfi təsdiqləyən əşyayi dəlil kimi professorun həyat yoldaşı Berte Rentgenin əlinin pəncəsinin şəklini çap etməsin. Lakin bütün bu diqqəti çəkən elmi uğura məhəl qoymayan Rentgen otağının qapısını arxadan bərk-bərk bağlayıb laboratoriyasına çəkilərək bütün var gücü ilə özünün kəşf etdiyi şüaların xassələrini öyrənirdi. Və onda yeni keyfiyyətlər aşkarlayırdı.

O vaxtlar bu kəşf dünya elmində inqilabi bir hadisə idi. Özü də rentgen şüalarının kəşfi digər yeni elmi tədqiqatlara təkan verib təzə kəşflərə səbəb oldu. Bununla yanaşı alman aliminin bu kəşfi elə ilk andaca həm dünya elmi dairələri və həm də dünya ictimaiyyəti tərəfindən böyük maraqla qarşılandı. Bu səbəbdən də 1896-cı ilin 20 yanvarında amerikalı alimlər Rentgen şüalarının köməyi ilə ilk dəfə olaraq insan əlinin sınığının təsvirini görə bildilər. Həmin vaxtdan da alman fizikinin bu kəşfi əbədilik tibb arsenalına daxil oldu.

Rentgenin kəşfi elm dünyasında böyük maraq doğurdu. Onun təcrübələri demək olar ki, bütün dünya alimlərinin laboratoriyalarında təkrarlandı. Kembricdə Cozef Tomson təcili olaraq rentgen şüalarının qazdan keçən elektrik cərəyanına ionlaşdırıcı təsirinin tətbiqinə başladı. Onun araşdırmaları elektronun kəşfinə səbəb oldu.

Elm tarixində buna bənzər hadisələr az da olsa yüz ildə, min ildə bir dəfə baş verib. Və həmin alimlərin elmi kəşfləri, yeni elmi ideyaları həm özündə, həm də sənaye və xalq təsərrüfatında, texnika və texnologiyada sözün həqiqi mənasında inqilabi yenilik yaradıb. Bu baxımdan fransız fiziki, Nobel mükafatı laureatı Lui de Broylun (1892-1987) elmdə hadisəyə çevrilmiş mikroobyektlərin hərəkəti haqqında müasir nəzəriyyəsi-kvant mexanikası nəzəriyyəsi xüsusi əhəmiyyət kəsb edir. Lui de Broyl bu elmi nəzəriyyəsi ilə mühüm təbiət qanunlarından birini bütün mikroskopik obyektlərin həm korpuskulyar və həm də dalğa xassəli olması qanununu müəyyənləşdirmişdir. Və alimin bu nəzəri tədqiqatları müasir kvant mexanikasının bünövrəsini təşkil etmişdir.

Alman nəzəriyyəçi fiziki, kvant mexanikasının yaradıcılarından biri olan Verner Heyzenberq də (1901-1976) dünya elmində inqilabi çevriliş edib, yeni ab-hava yaradan alimlərdəndir. O, 1927-ci ildə qeyri-müəyyənliklər nisbətini formula etmişdir. 50-ci illərin əvvəllərində isə vahid elementar zərrəciklər nəzəriyyəsi üzərində işləmişdir. Bu nəzəriyyə zərrəciklərin xassələrini vahid maddi substansiyanın ("parametriyanın") özü ilə (onun "öz təsiri ilə") qarşılıqlı təsirdə izah edir və elmdə yeni səhifələr açır.

Yeri gəlmişkən qeyd edək ki, dünya şöhrətli alimlərdən Blez Paskalın, İsaak Nyutonun, Ernest Rezerfordun, Albert Eynşteynin, Nils Borun, Enriko Ferminin, Lütfi Zadənin və onlarca başqa elm korifeylərinin kəşfləri də dünya elmində köklü dəyişikliklərə səbəb olub onu daha da zənginləşdirmişdir.

Söhbət elmi kəşfdən getdiyi üçün bu anlayışa aydınlıq gətirmək istəyirik. İlk öncə diqqətinizə çatdırırıq ki, elmi kəşf təbiət və cəmiyyət haqqında elmi biliklər sahəsində əldə edilən ən yeni, ən yüksək nailiyyətdir. Və elmin, texnikanın inkişafına prinsipcə yeni istiqamət verir və həm də ictimai istehsalı kökündən dəyişir. Bir sözlə, kəşf əvvəllər məlum olmayan, lakin maddi aləmdə obyektiv mövcud və bilik səviyyəsinə köklü dəyişikliklər gətirən qanunauyğunluqların, xassələrin və hadisələrin müəyyən edilməsidir.

Bildiyimiz kimi elmi kəşf etmək hər bir alimin ürəyindən keçən ən böyük arzu, ən böyük istəkdir. Amma orası da var ki, bu arzu və istəyi reallaşdırmaq xoşbəxtliyi hər alimə nəsib olmur. Elə bu səbəbdəndir ki, dünyada elmi kəşfi olan alimlər barmaqla sayılacaq qədər azdır. Çox maraqlıdır ki, bu barmaqla sayılacaq qədər az olan alimlər sırasında bir azərbaycanlı alim də vardır. O, Amerikada yaşayan soydaşımız professor Əli Cavandır.

# Professor ƏLİ CAVAN



*Ervin Şredinger öz heyrətini gizlədə bilməyib Amerika qəzetlərində müsahibələrindən birində demişdir: "...1937-38-ci illərdə Avropada fiziklər bütün gücləri ilə lazerin kəşfinə ciddi cəhd göstərirdilər. Alimlər işıq kvantının tədqiq edib öyrənə-öyrənə özləri də hiss etmədən lazer ideyası ilə üzləşmişdilər. Hətta o dövrlər dünya miqyasında yetərincə tanınan Nils Bor, Albert Eynşteyn və mən lazerin kəşfinə xeyli yaxın olmuşuq. Amma qəribəsi budur ki, qaz lazerin kəşfi xoşbəxtliyi həmin illərdə bizə yox, ondan çox-çox sonralar (1960-cı il, 12 dekabr) şərqli alim Əli Cavana nəsib oldu.*

Professor Əli Cavan 1926-cı ilin 27 dekabrında İranın Tehran şəhərində dünyaya göz açmışdır. Onun valideynləri əslən təbrizli idilər. Özü də onlar Əli Cavan doğulmamışdan bir az əvvəl Tehrana köçmüşdülər. Əli Cavan orta məktəbi bu şəhərdə qurtarmış və Tehran universitetinə daxil olmuşdur. O, 1948-ci ildə Tehran universitetini qurtarıb elə həmin ili də ABŞ-a üz tutmuş və Nyu-Yorkdakı Kolumbiya universitetində təhsilini yenidən davam etdirmişdir. Beləliklə o, 1954-cü ildə dissertasiya müdafiə edib fizika doktoru elmi dərəcəsi almağa nail olmuşdur. Tale onu 1958-ci ilin payızında Murrey Hildəki Bell Telefon laboratoriyalarına aparıb çıxarmışdır. 1962-ci ildə isə o, Massaçussetdəki Texnologiya İnstitutunda işə düzəlmişdir. Hər iki iş yerində - həm Murrey Hildəki Bell Telefon laboratoriyalarında, həm də Massaçussetdəki Texnologiya İnstitutunda araşdırmalar üçün geniş meydan açılmışdır. O, Bell Telefon laboratoriyalarında işlədiyi dövrlərdə qaz lazerin yaradılmasının mümkünlüyünü həm nəzəri, həm də təcrübi baxımdan əsaslandırmağa nail olmuşdur.





Digər işıq mənbələri ilə müqayisədə lazer onun şüalanmasının koqerentliyi və yüksək istiqamətliyi ilə bağlı bir sıra nadir xüsusiyyətlərə malikdir. İşığın qeyri-lazer mənbələrinin şüalanması bu xüsusiyyətlərə malik deyil. Heç bir optik sistem işıqlanan obyekt səthində işıq mənbəyinin özündə olduğundan daha güclü şüalanma əldə etməyə imkan vermir. Koqerent işıq mənbəyinin yaradılması vəzifəsi yalnız lazerin meydana çıxması ilə öz həllini tapmışdır.

Professor Əli Cavan 1960-cı ildə Massaçussetdəki Texnologiya İnstitutunda işlədiyi dövrlərdə isə informasiyanı almaq, ölçmək və emal etmək qabiliyyətinə malik spektroskokiyasının və işıq titrəyişlərinin mütləq tezliyinin ölçülməsi metodlarının əsaslarının tədqiqi sahəsində bir sıra fundamental işlər aparmışdır.

Qaz lazeri üzərində aparılan tədqiqatlar və eksperimentlərin çətinlikləri də professor Əli Cavanın yaddaşında beləcə silinməz izlər həkk edib. Həmin anlardan söhbət düşəndə qeyri-ixtiyari Əli Cavanın beynində o çətin anların xatirələri canlanıb boy göstərir: "O vaxtlar mən Bell Telefon laboratoriyalarında tədqiqatçılar qrupu ilə birgə işləyirdim. Onlar lazerin eksperimenti ilə əlaqədar hər cür şərait yaratmışdılar. Mən o vaxt qaz lazerin testi üçün iki müxtəlif qaz - Helium və Neondan istifadə edərək eksperimentə başladım. Mənim sxemim çox sadə idi. Qazın ortasından keçən iki elektroda elektrik cərəyanı buraxılırdı və bundan sonra lazımı effekt alınırdı. Açığını deyim ki, belə bir imkan iki dəfə yalnız Heliumun atomdan cərəyanın vəziyyəti qorunub saxlananda və elekt-

rik enerjisi daxili enerji kimi Neonun atomuna ötürüləndə yarandı. Və bundan sonra lazer şüalarını toplum şəklində əldə etmək mümkün oldu. Bunun üçün mənə Bell Terefon laboratoriyalarında nə az, nə çox düz iki il və iki milyon dollar lazım gəldi. Amma bütün bu çətinliklərə baxmayaraq mən 1960-cı ilin 12 dekabrında öz istəyimə nail oldum. Qaz lazer aparatından lazer şüası almağı reallaşdırdım. Və onu şərti olaraq "Adam" adlandırdım. Uzunluğu vur-tut bir metr olan, şüşə karobkada yerləşdirilən və arqon qazından istifadə edən bu cihazda ən müasir texnologiya öz əksini tapmışdır".

Söhbət lazerdən getdiyi üçün onun mahiyyətini elmi nöqteyi-nəzərdən açıqlamaq yerinə düşərdi. Mütəxəssislərin fikrincə lazer – görünən infraqırmızı və ultrabənövşəyi diapozonların elektromaqnit yayılmasının mənbəyidir. Bu mənbə atomların və molekulların icbari yayılmasına əsaslanır. Digər işıq mənbələri ilə müqayisədə lazer onun şüalanmasının koqerentliyi və yüksək istiqamətliyi ilə bağlı bir sıra nadir xüsusiyyətlərə malikdir. İşığın qeyri-lazer mənbələrinin şüalanması bu xüsusiyyətlərə malik deyil. Heç bir optik sistem işıqlanan obyekt səthində işıq mənbəyinin özündə olduğundan daha güclü şüalanma əldə etməyə imkan vermir. Koqerent işıq mənbəyinin yaradılması vəzifəsi yalnız lazerin meydana çıxması ilə öz həllini tapmışdır. Belə ki, əgər eyni spektral və bucaq intervallarında lazerin şüalanmasının intensivliyini mütləq qara cismin şüalanması intensivliyi ilə müqayisə etsək, istənilən işıq mənbələrinin real mümkün hərarətindən milyardlarla və daha çox fantastik yüksək temperaturlar alınar. Bundan əlavə kiçik şüalanma qabiliyyəti adi optik sistemlərin köməyi ilə işıq enerjisini ən cüzi həcmlərdə cəmləşdirməyə imkan verir və bu zaman enerjinin çox böyük sıxlığını yaradır. Şüalanmanın koqerentliyi və istiqamətliyi işığın qeyri-lazer mənbələrinin tətbiq oluna bilmədiyi hallarda, işıq mənbələrindən istifadənin prinsipcə yeni imkanlarını açır.

O, əldə etdiyi elmi nəticələri ümumiləşdirib hələ 1959-cu ilin iyun ayında Amerikada nəşr olunan nüfuzlu "Fizikal Revyu Letters" jurnalında diqqəti çəkən bir elmi məqalə çap etdirmişdir. Bu məqalə yeni bir elmi kəşfdən xəbər verirdi. Və həqiqətən də bu gümanlar tədricən özünü doğrultmağa başladı. Və buna əmin olan Əli Cavan bundan sonra amerikalı həmkarı T.Maymanla birlikdə optik tezliklərə əsaslanan elektron cihazların hazırlanmasını tədqiq etməyə başladılar. Bu tədqiqatda onun məqsədi elektronikanı radiodalğalar sahəsindən işıq sahəsinə keçirmək idi. Bu isə informasiyanın hazırlanmasını son dərəcə sürətləndirməyə imkan verərdi.

Onun yaratdığı kvant generatoru (lazer) dalğaları radiotezliklərdə mikro dalğalar yayırdı. Belə cihazı lazer effektindən istifadə olunmadan adi radio mexaniki vasitələri tətbiq etməklə də hazırlamaq olardı. İşıq dalğalarını yayan və gücləndirən cihazın hazırlanmasının isə heç bir analoqu yox idi. Və onun kəşfi fizika və texnikada bir inqilab oldu.

Bəli, 1960-cı ildə ilk dəfə olaraq belə cihazı nəzəri cəhətdən kəşf etmək və bu ideyanı həyata keçirmək T.Maymana (rubinli lazer) və Əli Cavana (helyum-neon lazeri) müyəssər oldu. Doğrudan da bu iki kəşf təkcə "texniki dünyada" deyil, həm də cəsarətlə demək olar ki, bəşəriyyətin bütün həyatında inqilabi dəyişikliklərə gətirib çıxardı. Lakin əgər T.Maymanın lazeri impuls rejimində işləyirsə, başqa sözlə, ondan gələn işıq mütəmadi olaraq yanıb sönərsə, ondan fərqli olaraq Əli Cavanın qaz lazeri fasiləsiz şüalanmaya malikdir. Əli Cavanın lazerinin belə böyük üstünlüyü güclü istilik şüalanma mənbələrinin yaradılmasında, uzaq rabitənin həyata keçirilməsində, yüksək və fövqəlyüksək informasiyanı almaq, ölçmək və emal qabiliyyətinə malik spektrometrlərinin yaradılması üçün qoloqrafik təsvirlərin alınmasında ondan istifadə etməyə imkan verir. Bir də onu deyək ki, Əli Cavan lazerinin iş prinsipindən istifadə olunması ilə güclü, fasiləsiz şüalanmaya malik böyük





miqdarda ən müxtəlif lazerlər hazırlanmışdır. Bu lazerlər artıq bir neçə ildir ki, hərbi və mülki məqsədlərlə geniş şəkildə tətbiq edilir.

Gördüyünüz kimi professor Əli Cavanın uzun illərdən bəri üzərində intensiv tədqiqatlar apardığı qaz lazerin kəşfi nəhayət 1960-cı ilin 12 dekabrında öz bəhrəsini vermişdir. Qaz lazerin kəşfi xəbəri ildırım sürəti ilə bütün dünyaya yayılmışdır. Bu xəbər hələ ötən əsrin 30-cu illərində qaz lazerin kəşfinə ciddi cəhd göstərən, amma onu reallaşdırmağa güc tapmayan Avropa alimlərini əməlli-başlı heyrətləndirmişdi. Hətta dünya şöhrətli Avstriya fiziki, kvant mexanikasının yaradıcılarından biri olan Ervin Şredinger öz heyrətini gizlədə bilməyib Amerika qəzetlərində müsahibələrindən birində demişdir: "...1937-38-ci illərdə Avropada fiziklər bütün gücləri ilə lazerin kəşfinə ciddi cəhd göstərirdilər. Alimlər işıq kvantının tədqiq edib öyrənə-öyrənə özləri də hiss etmədən lazer ideyası ilə üzləşmişdilər. Hətta o dövrlər dünya miqyasında yetirincə tanınan Nils Bor, Albert Eynşteyn və mən lazerin kəşfinə xeyli yaxın olmuşuq. Amma qəribəsi budur ki, qaz lazerin kəşfi xoşbəxtliyi həmin illərdə bizə yox, ondan çox-çox sonralar (1960-cı il, 12 dekabr) şərqli alim Əli Cavana nəsib oldu. Mənimçin önəmli bir kəşfin kim tərəfindən edilməsi yox, onun dünya elmi üçün nə qədər gərəkli olmasıdır. Əli Cavanın bu kəşfi dünya elmi üçün gərəkli olan bir kəşfdir".

Dünya elm tarixindən bizə yaxşı məlumdur ki, hər yeni elmi kəşf elmdə inqilabi ovqat yaradıb, mühüm dəyişikliklərə səbəb olur. 1960-cı ildə lazerin və bir qədər əvvəl (1955-ci il) mazerin yaradılması fizika və texnikada kvant elektronikası adlanan yeni istiqamətin inkişafının əsasını qoydu. Alimin kvant elektronikası və lazer fizikası üzrə olan nəzəri hesablamaları isə bütün fizika dərsliklərinə daxil edildi. Bundan da daha önəmlisi odur ki, onun irəli sürdüyü nəzəri fikirlərdən, eləcə də təcrübi nəticələrdən günü bu gün də üç pilləli mazer və lazer sistemlərinin hazırlanması zamanı geniş istifadə olunur. Hətta daha geniş spektrdən baxsaq görərik ki, professor Əli Cavan düşüncəsinin bəhrəsi olan lazer həyatımızın bütün sahələrinə sirayət etmişdir.

Amma məsələ burasındadır ki, peyk rabitəsindən tutmuş təbabətədək bütün sahələrdə geniş tətbiq olunan qaz lazerin yaradıcısı professor Əli Cavan kimi nəhəng bir alim haqqında dünya çox az şey bilir. 1964-cü ildə amerikalı alim Çarlz Tayns, eləcə də rus fizikləri Proxorov və Basov kvant elektronikası sahəsində işlərinə görə Nobel mükafatına layiq görüldükləri halda professor Əli Cavan və professor T. Maymanın adları lazım olan yerlərdə çox az xatırladılır.



***Dünyada bütün kəşflər, ixtiralar, tərəqqilər, xaoslar, fəlakətlər çəkisi 1350-1400 qram olan insan beyninə bağlıdır. Həcmi iki yumruq boyda, tərkibi isə sudan, yağdan, proteindən, duz və digər minerallardan ibarət beyin... Həmçinin kainatda ən qarmaşıq və ən mürəkkəb sistem yenə də beyindir.***

***Beyin ağlın döl yatağı və ruhun alətidir. Ağıl, ruhi tərbiyədən uzaqlaşarsa beyin fəlakətlər təsis edən vəhşət müəssisəsinə çevrilər...***



# 37-yə gedən yol

| ELMİRA QASIMOVA

37-yə gedən yol – Gülüstan və Türkmənçay müqavilələrindən, 1920-ci ildə Rus bolşeviklərinin Azərbaycanı işğalından, Leninin Mikoyana verdiyi mandatdan və Şaumyanın Leninə vurduğu teleqramdan, zorakı kollektivləşmədən, "təmizləmə əməliyyatı" dövründən keçib gəldi. Dədə-babadan qalan əsil-nəcabəti, ad-sanı, var-dövləti ilə bir sinif olan "qolçomaq"lar Sibirdə ləğv edildi.

37-ci ildə bütün bunlar yekunlaşdırıldı – düşünən beyinlər, danışan dillər susduruldu. İnsanı insanlıqdan çıxaran, insanı insana tanıdan, öz gözündə həm ucaldan, həm alçaldan faciələrlə dolu bir tarixin fəlsəfi mahiyyətini dərk etmək, çılpaq həqiqəti aşkarlamaq üçün 37-yə hansı mövqedən yanaşmaq lazımdır? Söz yox ki, bu gün, 70 ildən sonra söylədiklərimiz ola bilər ki, subyektiv xarakter daşıyacaq...





***Onlar heç imdad belə istəmədilər. Qəddar, rəhimsiz, "baxıb görməyən gözlər, eşidib kar olan qulaqlar, daşlaşmış ürəklər" çox asanlıqla onların ölüm kağızına imza atırdı. Bu çətin yolu seçənlər mənəvi azadlığı hər şeydən üstün tutanlar – ziyalılar idi.***

Ədalət, vicdan, cəsarət, mənəvi cəngavərlik 37-ci ildə ağır sınağa çəkildi. İnsana öz mənliyi, mənsubiyyəti, dili və dini, adət və ənənələri, tarixi, mədəniyyəti yadlaşdırıldı. Bu dövrə həssaslıqla yanaşmaq, insanların iztirablar burulğanında necə çapaladığını duymaq, sabaha çıxmaq üçün özünü (hətta doğmalarının taleyi hesabına olsa belə) qorumaq instinkti barədə dərindən düşünmək lazımdır.

Bəlkə nəticədən daha çox səbəbdən danışılmalıdır. Kimə, necə haqq qazandırasan? – Ürəyinə daş basıb, balalarının taleyini düşünüb "xalq düşməni" olan ərindən boşanan qadının ürəyinə axan göz yaşlarını kim görüb? Qohum-qardaşın, qonşuların simasızlığından, dönüklüyündən sınanların inamı elə 37-də də kökündən baltalandı.

İradəsiz, qətiyyətsiz, insanlar qürurla, sınmayan mənliklə üzləşiblər. Sanki dünya iki qütbə bölünmüşdü. Zorakı üsul-idarə danışanların "səsini aldı", hakimiyyət güc ilə mənəvi qüdrətə üstün gəlmək istədi. Əsas alət, vasitə isə məhz vahimə oldu. Həqiqət kimi təqdim edilən yalanlar aləmində anlayıb susanlar vicdanın səsilə danışanlardan üstünlük təşkil etdi. Zəkalı adamların taleyi nadan vəzifəpərəst, qorxaq adamlardan asılı vəziyyətə düşdü. "Millətçilk", "türkçülük" – qəbahət, günah hesab olunurdu. İdarə etmənin, tabe etmənin xof, qorxu adlı aləti ilə yenilməz idarə, kişilik ilə riyakarlıq, ləyaqət ilə satqınlıq, şərəf ilə rəzalət üz-üzə gəldi. Ağır fiziki işgəncələr, əmək-islah düşərgələrindəki dözülməz həyat, Sibirin ilik donduran soyuğu dəyanətli insanları sındıra bilməzdi.

37-ci ilin repressiyalarını Stalinin adı ilə bağlayırlar. Stalin və onun partiya dostları guya qayda-qanun yaratmaq istəyirdilər? Necə və nəyin bahasına? "Onlar" insanların psixologiyasını yaxşı bilirdilər, sadəcə olaraq onların arasına "ideya" təfriqəsi salır və bir-birinin əlilə aradan götürürdülər.

37-ci il dünyanın çaxnaşıq, ağır zamanı qürurunun məslək və əqidəsinin tapdanmasına dözməyənlər, heç bir tutarlı əsas olmadan, sorğu-sualsız "gedər-gəlməzə" yola salındı. Onlar heç imdad belə is-



Okeanlar, dənizlər tufanlarıyla, dağlar qorxunc uçurumlarıyla, səhralar sərablarıyla, buludlar göz qamaşdıran şimşəkləriylə, zəlzələlər bütün gücüylə, cahan hər növ bəlaları və zalımları ilə birləşərək bu millətin qollarına qandal vurmağa çalışsa da milli ruhun gücü, istiqlal əzminin bütövlüyü, onu param-parça edər.

təmədilər. Qəddar, rəhimsiz, "baxıb görməyən gözlər, eşidib kar olan qulaqlar, daşlaşmış ürəklər" çox asanlıqla onların ölüm kağızına imza atırdı. Bu çətin yolu seçənlər mənəvi azadlığı hər şeydən üstün tutanlar – ziyalılar idi.

Bu asanlıqla təslim olmaq istəməyən, əyilməyən, yalanla barışmayan işıqlı şüurların qaranlıq üzərindəki ölçüyəgəlməz üstünlüyü, qələbəsi idi. Kommunistlər tapdalanan insanların güc-qüdrətindən, dəyanətindən qorxurdu. Maraqlıdır ki, qəddarlıq və zülmlə icra edənin, qorxu gələnin özü qorxurdu.

37-də insanlar da, həyat da ikiləşdi. Əbədi Lenin, atamız Stalin, xilaskar Qızıl Ordumuz deyib tribunalarda, meşin qapılı kabinetlərdə "nağıl uydu-

*Bir qismi qana susamış insanların intiqam, qisas hissi, "gözübağlı" ideallara xidmətçilik ruhu, azğınlıq dərəcəsinə çatmış NKVD-çilərin gecə qaranlığında qara maşınlarda gətirdiyi bədbəxtlik və bunların fövqündə duran "İblisəmi uymuş bəşəriyyət?" deyən Hüseyn Cavid kimi dahilərimiz.*

ranlar" bir tərəfdə idi, Hüseyn Cavid, Mikayıl Müşviq, Seyid Hüseyn, Əhməd Cavad, Əhməd Cövdət, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə və neçə-neçə yaradıcı ziyalılar digər cəbhədə.

Yaxşı bəs yaradıcı alimlər kimlərə mane olurdu ki? Respublikanın bütün şəhər və rayonlarında siyahılar tərtib edilir, həmin siyahılara elm, mədəniyyət və incəsənət xadimlərinin, ağsaqqalların, istedadlı şəxsiyyətlərin, hətta sovet və partiya orqanlarında işləyən (şəfqət və ləyaqəti ilə seçilənlər) insanların adları salınırdı. Bir sözlə, istəyəndə "öküzü qaldırıb altından buzov axtarırdılar". Əvvəl milləti, sonra öz-özlərini (Ayna Sultanovanı da özü qurduğu hökumət bərk cəzalandırdı) əqrəb kimi "sancıb yedilər". (Sədi Şirazi demişkən: "Nişe əqrəb nə əz rəhi qəzəzəst, tərki adət be mocibi məzəzəst") və bu zaman elə hesab edirdilər ki, öz "müqəddəs" vəzifələrini yerinə yetirirlər. Bir-birinin qanına susayan, bir başqasının ağıl, istedad və hətta şəxsiyyətinə həsəd aparan, bütün bunlardan darıxan-daralan, başqasının "isti aşına soyuq su qatıb", ocağını söndürüb, balalarını çöllərə salıb, sonra da başını rahat balınca qoyub xorultu ilə yata bilirdi. İnsanlara böyük məhəbbətdən danışıb nifrət içində yaşayır, sülhdən, əmin-amanlıqdan danışıb-həbsxanalarda insanlara zülm-işgəncələr verilirdi, işıqlı gələcəkdən ağızdolusu dəm vurur – gələcəyi zindanlarda, sürgünlərdə məhv edirdilər. Sanki kütləvi psixoz baş alıb gedirdi: bir qismi qana susamış insanların intiqam, qisas hissi, "gözübağlı" ideallara xidmətçilik ruhu, azğınlıq dərəcəsinə çatmış NKVD-çilərin gecə qaranlığında qara maşınlarda gətirdiyi bədbəxtlik və bunların fövqündə duran "İblisəmi uymuş bəşəriyyət?" deyən Hüseyn Cavid kimi dahilərimiz.

Hüseyn Cavid "onların" gözündən yayınmadı. Sayseçmələrin siyahısına onun da adı yazıldı. Onun böyüklüyünü, istedadının qüdrətini görməmək mümkün deyildi.

Hüseyn Cavidə romantik şair deyirdilər. İrad tuturdular ki, müasir həyatdan, tarladan, kolxoz-sovxozdan, ən vacibi sosialist inqilabının şanlı qələbəsindən yazmır. Anlamıram kommunistlərə H. Cavidin şeirləri belə vacib lazım idi?

Cavid əfəndi isə Topal Teymurdan, Peyğəmbər(s.a.v) dən, Səyavuşdan, Şeyx Sənandan, İblisdən yazırdı. Onun müraciət etdiyi mövzu, söz açdığı hər hansı bir problem onun şərhində öz izahlı cavabını tapırdı. H.Cavid nəyi vurğulayırdı? Kimlərə nəyi deyirdi və necə deyirdi? Onu başa düşürdülərmi? Onun eyhamlı, müdrik sözlərindəki pünhan mənanı anlayırdılarmı? Əlbəttə! Bəs niyə başa düşmürük deyirdilər. Niyə H.Cavid əsərləri uzun illər nə nəşr olundu, nə məktəblərdə tədris edildi, nə də teatrlarda tamaşaya qoyuldu? Görəsən H.Cavid "Xalq düşməni" kimi xalqa nə pislik etmişdi, günahı nə imiş? Axı onun yazdığı əsərlərin (yalnız "Xəyyam" 1935-ci ildə yazılmış və Azərbaycan SSR ədəbi əsərlər müsabiqəsində 3-cü mükafata layiq görülmüşdür) tarixi 1917–1925-ci illər arasına təsadüf edir və sosialist ideologiyası ilə heç bir (nə tənqid, nə tərif baxımından) əlaqəsi olmayıb.

Bəs elə isə "tükü-tükdən" seçən NKVD əlində qələm, gözündə eynək, adamayovuşmaz, sözü ölçü-biçiylə deyən dərd əhli – şairdən niyə qorxurdu? Hüseyn Cavid dövlət əleyhinə sui-qəsdmi hazırlamışdı, əlinə silah alıb güllələmi atmışdı, başına dəstə yığıb əks təbliğatmı aparmışdı?

M.C.Bağırov Yazıçılar Birliyinin qurultayında çıxış edən zaman Hüseyn Cavidin, Əhməd Cavadın adlarını çəkmişdi, vəssalam!

"Onlar" cavidlərin söz, fikir hədəfində idi. (İnsanları xəlq etmədə var bəlkə də hikmət, İblisə nə hacət?!). Onlar bilirdilər və bildikləri üçün də güc, zor hesabına düşünübdanışanların özlərini hədəfə aldılar.

Repressiyalar 50-ci illərə qədər davam etmişdir. Ən təzadlısı isə Böyük vətən müharibəsi zamanı Stalinin "bir addım da geri çəkilməmək" haqda əmrini kor-koranə yerinə yetirdiyi üçün əsir düşən, sonradan bu "günah"a görə Stalin düşərgələrində ağlasığmaz əziyyətlərə məruz qalan əsgər və zabitlərimizin sınmış taleyi oldu.

Siz elə bilirsiniz ki, Sibirdə əziyyət çəkən yalnız "günahkarlar", "cinayətkarlar" idi? Bəs onlara nəzarət edən, ağır fiziki işlərə vadar edən, cəzalandıranlar, yarıcan məhbusları diri-diri basdıranlar necə? Bəs onların iç dünyası alt-üst edilmədimi? Bəs niyə Stalinə bu qədər pərəstiş edir, illər keçsə də böyüklüyünü, dahiliyini riqqətlə yad edirdilər? Totalitar rejim insanlara susmağı, həqiqətə göz yumub, hətta danmağı belə öyrətmişdi və hər bir insan öz evində belə özünü nəzarətdə hiss edirdi. Biz Stalinə, onun idarəçilik üsuluna bu günün gözü ilə baxıb "insan hüquqlarının necə kobudcasına pozulması" haqda fikir söyləməyimiz, bəlkə də gülünc görünər. Kütləvi repressiyalar, daimi terror və qorxu əhatəsində yaşamaq, bir-birinin gözünə baxıb qatilini görmək, xainlə dost arasında itirilib-silinmiş sərhədlərdə vurnuxmaq – bütün bunlar 37-ci illərdə yaşamış ata babalarımızın tale qisməti, olmuşdur.





*Nütfə... bir damla sudur. Azca açıqda qalsa buxarlanar yox olar. Atanın bel, ananın sinə sümüyündən çıxan bu maddə rəhm tarlasında əkilər, heyz qanı ilə suvarılar. Mikroskop altında çətinliklə görünən bu bəyaz məhlul, qırmızı qana, sümüklərə, damarlara, sinirlərə, trilyonlarla hüceyrələrə çevrilərək doqquz ayda 3 kq-lıq bir uşaq olur. İç orqanları, beyni, ürəyi, böyrəkləri, bağırsaqları formalaşdırır. Daha sonralar böyüyür...*

*Kainatla rabitə üçün beş duyğu orqanlarından istifadə edir.*

*Yer üzərində mövsümlərin gəliş-gedişini, milyard tonlarla suların buxarlanmasını, yenidən çöllərə, dağlara səpələnməsini, ağacların heyvanlara, insanlara xidmət etməsini, 150 milyon km-dən dünya evinə istiliyini endirən günəşi, yerin altındakı neft, qaz yataqlarını, bulaqları, duzları, kibritlər mədənlərini, dənizlərin dibində yalçın qayalar üzərində mərcanları, qurudakı heyvanları, sayı onlardan dəfələrlə çox olan sudakı canlıları düşünür.*

*Sonra təbiətdəki vəhdəti, hormoniyanı, gözəllikləri, səmadakı milyonlarla ulduzları, qalaktikaları, fəzadakı boşluqları, maddi aləmin son sərhədlərini, o sərhədlərdən o tərəfləri, genişlənən kainatı, Ərşi, "Kürs"ünün ehtişamını düşünür. Bu düşüncə iki yönə ayrılır. Mikro aləmdən, norma aləmə, ordanda makro aləmə hər şey təsadüflərin əsəridir. Yaxud da bir nizamlayıcı var?*

# Dolixos

***Misir paxlası, ləbləb, giasint paxlası adı ilə Şərqi Afrika ölkələrində, Hindistanda, Çində, Yaponiyada, Birmada qədimdən becərilir. Sovetlər Birliyində 1930-cu ildən məlumdur. Bu illərdə dolixosun N.İ.Vavilov tərəfindən toplanmış dünya kolleksiyası Ümumittifaq Bitkiçilik İnstitutunun Suxumi Təcrübə Stansiyasında öyrənilməyə başlanmış və SSRİ-nin subtropik rayonlarında yetişən formaları alınmışdır. Sonralar Aşqabadda və Krasnodarda öyrənilib. Tarla bitkisi kimi Orta Asiya, Cənubi Qazaxıstan, Krasnodar regionlarında perspektivli yem bitkisi kimi təmiz və qarğıdalı ilə qarışıq halda becərilir. Təmiz əkində hektardan 200-300 sentner yaşıl kütlə verir. Cənubi Qazaxıstanda(Ağ çöl) qarğıdalı ilə qarışıq əkinindən hektardan 1400 sentner yerüstü kütlə alınır. Onun 1200 sentnerini qarğıdalı 200 sentnerini dolixos təşkil edir. Dolixos paxlalı bitkilərin lobya qrupuna aiddir. Təbiətdə 30-dək növü məlumdur. İki növü: adı və ikiçiçəkli dolixos mədəni halda becərilir.***





***Dolixosun 100 kiloqram yaşıl kütləsi 18 yem vahidinə bərabərdir. 100 kiloqram yaşıl yemində 4-5 kiloqram həzm olunan zülal vardır. Dəni əvəzolunmaz amin turşuları ilə zəngindir. Lizinin miqdarına (6,1%) görə toyuq yumurtasına (6,8%) bərabər tutulur.***

| S.ƏLİYEV
Kənd təsərrüfatı elmləri doktoru

Dəni, yaşıl kütləsi, cavan zoğları, yarpaqları, paxlası, yetişməmiş dəni istifadə üçün sərfəlidir. Yüksək həzm olunma qabiliyyətinə malik dənin tərkibində zülal 28 faiz, nişasta və şəkər–32, yağ–2,3, kül–7,6, yaşıl kütləsində zülal–20 nişasta və şəkər–34, yağ–1,2, sellüloza–33, kül–10 faiz, karotin 35 mq/kiloqramdır.



Dolixosun 100 kiloqram yaşıl kütləsi 18 yem vahidinə bərabərdir. 100 kiloqram yaşıl yemində 4–5 kiloqram həzm olunan zülal vardır. Dəni əvəzolunmaz amin turşuları ilə zəngindir. Lizinin miqdarına (6,1%) görə toyuq yumurtasına (6,8%) bərabər tutulur. Yerüstü kütləsi yaşıl halda, quru ot və silos kimi mal-qara tərəfindən həvəslə yeyilir. Vegetativ və generativ orqanları xoşagələn ətrə malik olduğundan ətə, südə və digər heyvandarlıq məhsullarına xoşagələn iy verir. Yaxşı bəzək bitkisi olan dolixos dənli pəhriz ərzağı kimi də böyük əhəmiyyətə malikdir. Yaşıl paxlası bişirilmiş və konservləşdirilmiş halda məişətdə işlədilir. Digər dənli-paxlalı bitkilərlə müqayisədə ən böyük üstünlüyü çox məhsuldar olmasında, bizim şəraitdə vegetasiyasının qarğıdalı bitkisi ilə tam uyğun gəlməsindəndir.

Birillik və çoxillik formaları olan adi dolixos geniş yayılmışdır. Gövdəsi sarmaşandır. Kök boğazından və gövdənin birinci buğumundan yaxşı budaqlanır. Əsas gövdəsinin hündürlüyü 1,5-2 metr və daha artıq olur. Gövdə antosionalı, yaşıl rəngdədir. Əsas kök sisteminə malikdir. Mil kökü yaxşı şaxələnərək torpağın dərin qatlarına işləyir. Kökündə havanın sərbəst azotunu mənimsəyə bilən kök, yumru bakteriyalar yaşayır.

Üçlü tipdə, açıq yaşıl rəngdə yarpaqlarının kənarları antosian piqmenti ilə rənglənmişdir.



Çiçək qrupu çox çiçəkli salxımdan ibarətdir. Çiçək saplağı mürəkkəb yarpağın qoltuğunda əmələ gəlir. Bir çiçək qrupunda 40-dək çiçək ola bilir. Bunun 5-15 ədədi mayalanaraq paxla əmələ gətirir. Çiçək salxımın aşağı hissəsindən yuxarıya doğru açılır. Ləçəkləri 5 ədəddir. Ağ, lil, tünd bənövşəyi rənglərdə olur. Paxlası insan dodağına oxşayır. Ləbləb adı da buradan götürülmüşdür. 2-5 toxumlu, 4-9 santimetr uzunluğunda tam yetişmiş paxla sarımtıl-yaşıl, tünd-qonur və bənövşəyi rəngdə olur. 1-2 santimetr uzunluqda ağ, şabalıdı, tünd qara, qırmızı çalarlı qonur rəngli toxumları ellips formalı, yanlardan basıq dəbilqəyə bənzər göbəkciklidir. 1000 ədədi 150-200 qram gəlir.

İstilik sevən bu bitkinin toxumu 12°C-də çürüməyə başlayır. Bu məqsəd üçün optimal temperatur 20-30°C-dir. 1°C-də cücərtilər məhv olur. Tezyetişən formalarda vegetasiya 2-3 ay, orta müddətdə yetişənlərdə 3-5 gün, gecyetişənlərdə 6-7 aydır. Toxumların cücərməsi üçün kütləsinin 180-200 faizi miqdarında su tələb edir. Bitkidə paxlalar eyni vaxtda yetişmir.

Dolixos cücərmə vaxtı və vegetasiyanın birinci dövründə (çiçəkləməyədək) nəmliyə tələbkardır. Çiçəkləmə fazasından sonra cərgələrarası qovuşur. Torpaqdan buxarlanma azaldığından bitkinin nəmliyə tələbatı da aşağı düşür. Quru subtropiklərdə, yalnız suvarma şəraitində becərilə bilər. Tezyetişən sortlar günün uzunluğuna az reaksiya göstərir. Gecyetişən sortlar isə qısa günü sevir. Bu bitkinin becərilməsi üçün neytral reaksiyalı gilli, gillicəli və allüonal qumsal torpaqlar müsaibdir. Adi dolixos respublikamızda, demək olar ki, tədqiq edilməmişdir. Son zamanlar Gəncə-Qazax zonası şəraitində təmiz halda və qarğıdalı ilə qarışıq əkinləri öyrənilir. Səpin aprelin 10-20; 30-da və mayın 10-da cərgəarası 70





santimetr olan nöqtəvi üsulla, 70x30 sxemində aparılır. Hər yuvada bir bitki saxlanılır.

Təmiz əkində hektara 200 min ədəd kütlə hesabı ilə 35-40 kiloqram, qarışıq əkində 100 min ədəd qarğıdalı, 100 min ədəd dolixos səpilir. Cücərti alındıqdan sonra bitkilər 70x30x1 sxemində saxlanır. 10 aprel səpinindən 12 gün keçdikdən sonra tam çıxış alınır, aprelin 29-dan bitkilərdə 3-4 yarpaq, iyunun 16-dan çiçəkləmə, iyulun 4-də paxlaların əmələgəlməsi, avqustun 15-də paxlaların qonurlaşması dənin yetişməsi müşahidə edilir.

Cücərtinin yetişmə dövrü 115 gün çəkir. Paxlaların əmələgəlməsi və dənin yetişməsi havanın temperaturu 10°C-yə enənədək (dekabrın 15-dək) davam edir. Toxum məhsulu sonuncu dəfə sentyabrın 5-də toplanır.



Gəncə şəraitində adi dolixosun tam vegetasiya müddəti 135 gündür. Deməli, bu bitki respublikamızın dağətəyi rayonları ilə yanaşı, düzən rayonlarının əksəriyyətində də dən üçün becərilə bilər. 3 ildə orta hesabla təmiz əkindən 20-24 sentner dən məhsulu və kütləvi çiçəkləmə fazasında 350-400 sentner yaşıl kütlə məhsulu alınır.

Dəndə şiqroskopik nəmlik 10,29 faiz, yağ–0,52, sellüloza–10,05, kül–3,9, xam zülal–22,6, azotsuz ekstraktiv maddə–52,73 faizdir. Qarğıdalı ilə qarışıq əkinlərdə (qarğıdalı + dolixos 70x30 sxemində 1:1-ə nisbətində səpildikdə) qarğıdalı daha normal böyüyüb inkişaf edir, dolixos isə nisbətən zəif budaqlanır.

Ümumi kütlədə qarğıdalı ilə dolixos 8:2-yə nisbətindədir. Belə ki, hər hektardan alınan 1000 sentner yaşıl kütlənin 800 sentnerini qarğıdalı, 200 sentnerini dolixos təşkil edir. Belə qarışıq əkində dolixosun dənli paxlası da az olmuşdur. Yəni qarışıq əkində dolixos qarğıdalıya müsbət, qarğıdalı isə ona mənfi təsir göstərir.

Gəncə şəhəri ətrafında səpin aprelin 20-də aparıldıqda, bu qiymətli bitkidən yüksək dən məhsulu alınır.

Bir hissə qarğıdalıya 1,5 hissə; yəni 1:1,5-ə nisbətində dolixos toxumu qarışdırıb aprelin 20-də, cərgəarası 90, cərgədə bitkiarası 20 santimetr olmaqla səpin apardıqda hər iki bitki normal inkişaf edir. Yaxşı dənli məhsul alınır.

Krasnodar–300 MB qarğıdalı hibridi dolixosla qarışıq əkində hektardan 50, adi dolixos isə 25 sentner dən məhsulu verir. Hektardan 125 sentner quru küləş məhsulu alınır.

Gəncə-Qazax zonasında dən almaq üçün adi dolixosu təmiz halda cərgəarası 70, cərgədə bitki arası 30 santimetr olmaqla, yaxud qarğıdalı ilə qarışıq halda (1:1,5-ə nisbətində) cərgəarası 90, bitkiarası 20 santimetr saxlanmaqla və keyfiyyətli silos kütləsi almaq üçün toxumları 1:1-ə nisbətində qarışdırıb cərgəarası 70, bitkiarası 20 santimetr olmaqla aprelin 20-də səpmək məsləhətdir.

Təmiz və qarışıq əkinlər səpindən dərhal sonra, 3-4 yarpaq qönçələmə – gövdə əmələgəlmə, çiçəkləmə – süpürgəburaxma və yetişmə başladıqda suvarılmalıdır.

Təmiz və qarışıq əkində dolixosun paxlalarının 65-70 faizi qonurlaşdıqda məhsul hissə-hissə yığılmalıdır. Silos üçün qarğıdalı qıçaları dən südyetişmə fazasında yığılmalıdır.

# MƏKTƏB



*Uşaq ailənin meyvəsi ancaq millətin övladıdır. Ailəyə əmanət verilib... İstənilən zaman geri alına bilər... Onun yeməyi, içməyi, geyinməyi, həyata hazırlanması önəmlidir. Lakin onun beyninin yetişməsi, qəlb dünyasının formalaşması, dinləmə ədəbinin yetkinləşməsi daha əhəmiyyətlidir. Ona görə də maddi ehtiyaclarından daha çox mənəvi ehtiyaclarını təmin etmək lazımdır.*





***Təlim, tərbiyə dünyadakı vəzifələrin ən ağırı və ən məsuliyyətlisidir. Bəşəriyyətin maddi və mənəvi yüksəlişini təmin etmək, yalnız dürüst maarifləndirmə metoduna bağlıdır. Ailədən cahana gedən yola çıxırsan. Bu yolun ən çətini yoxuşlara dırmanmaqdır. Bundan daha çətin isə istəmədən o çətinlikləri aşmaqdır. Sən qəddini qaldır, başını dünya qarşısında düz tut, iradənin haqqını ver, kainat məktəbinin əsl tələbəsi ol.***

| AĞA HACIBƏYLİ

Gözləri məftun edən çiçəklərin, könülləri heyran qoyan və ruhları oxşayan güllərin yetişdiyi zəmi məktəbdir. Ailə yurdundan əmanət alınmış balacaların duyğularının tərbiyə qazandığı, hisslərinin həssaslaşdırıldığı, ruhların milli şüurla qanadlandırıldığı, düşüncələrin dərinləşdirildiyi, təfəkkürlərin kainatla bağlandığı və insanlığın sönməz günəşləri olan müəllimlərlə görüş yeri məktəbdir. Körpələrin könül bağçalarının bağbanları, ürək torpaqlarının əsl əkinçiləri, yollar arasındakı doğru yolu göstərənləri şəfqətlə bağrına alan məktəbdir. Burada yazmaqdan öncə qələmi tutmaq ədəbi, kitabı oxumaqdan əvvəl onu sevmənin sirri, əyləşmək və dinləmə əxlaqı öyrədilir. Əslində bu bilginin təməli hələ ana qucağında ata ocağında təsis edilmiş və məktəblərdə isə yeni forma ilə davam etdirilir. Yeniləşmə, yenidən doğulma, elmin könül lövhələrinə nəqş edildiyi yurd, qocalan dünyanın həmişə cavan qalan məbədi məktəbdir. Bu məbəd həyatın yaradılış qayəsini, insanın varlıq hikmətini açdığı kimi, şagirdlərə mövcudatın xilqət pərdəsinin arxasını da öyrətməyi özünün



*Bu məbəd, çiçəyin ruha zövq verən təbəssümünü, ağacın heyrətverici nizamını, həşəratların bal, ipək istehsalını, milyon tonlarla suyun buxarlanaraq bizə zəhmət vermədən, yenidən susuz çöllərə həyat gətirməsinin sirlərini açıqlar və kainatı lal dili deyil hal dili ilə tanıtdırar.*

vəzifəsi bilir. Ağılsız, şüursuz bir ağacın milyonlarla yarpağına eyni miqdarda qida verməsi, ipsiz iynəsiz özünə libas tikməsi, digər tərəfdən bədənimizə lazım olan vitaminləri – meyvələrində yetişdirməsinin səbəblərini orada öyrənirik. Elmi dilə gətirib danışdıran, kəlmələrə qanad taxaraq onu kainatın həmdə insan dünyasının səmalarında gəzdirən, həqiqət ümmanlarına yelkən açan məktəbdir.

Bu məbəd, çiçəyin ruha zövq verən təbəssümünü, ağacın heyrətverici nizamını, həşəratların bal, ipək istehsalını, milyon tonlarla suyun buxarlanaraq bizə zəhmət vermədən, yenidən susuz çöllərə həyat gətirməsinin sirlərini açıqlar və kainatı lal dili deyil hal dili ilə tanıtdırar.

Quşların heyvanların cinsini, çiçəyin böcəyin nitqini, dağların yamaclarını, zirvəsini, dünyanın coğrafiyasını, okeanların böyüklüyünü, qitələrin nəhəngliyini, daha sonra kainatın hər saniyə genişləndiyini təlim edir. Maddi aləmin sonundan başlayan metafizik aləmlərə xəyali ekskursiya və kainatın necə, hansı şərtlər əsasında var olmasının elmi mülahizələri ilə burada tanış oluruq. Oradakı zaman üstü sürətin təyin mexanizması, tədqiq taktikası, kainatın sonu haqda ən müfəssəl bilgiləri, ən yeni görüşləri buradan alırıq. Hər gün şagirdlər bu canlı dərsləri, ibrətverici universal məlumatları əxz edincə, varlıq aləminə olan nəzərlər dəyişir. Kainatdakı ideal nizam sistemini düşünən insanın təfəkkürü dəyişdikcə, onun həyat tərzinə də müsbət təsir edir.

Müasir dünyanın ən qlobal problemi insan fitrətindəki minlərlə dəyərləri kamilcəsinə yetişdirməkdir. Əxlaqlı, iffətli insan dünyanın dərdinin ilk dərmanıdır. Sosial həyata nizam verə biləcək kadrlar, cəmiyyətin intellektual səviyyəsini təşkil edən tələbə ordusu məktəbin amalıdır. Məktəb həmdə dövlətin beynidir. Məktəbi mətləbsiz, məsləksiz, məfkurəsiz olan xalqlar qloballaşan dünya arenasında, cahan qurbanlarına çevrilirlər. Dünyada rəqabət insafsız və ədalətsizcəsinə aparılır. Həqiqi dəyərlər istismar olunur, mənəvi ölçülər tarixin yaddaşından zorla qoparılır və hər şey maddi güc ilə qiymətləndirilir. Ona görə də mənəvi və ruhi boşluq böhranı mərkəzləşən dünyanın ən nəhəng problemi kimi həllini tapmamaqdadır.

Məktəb insan xilqətinin ruh xəmirinin Kövsər suyu ilə yoğurulduğunu özünün məsləyi hesab edər. Bəşər mənşəyini nəsli kəsilmiş dördayaqlılardan deyil insana aid olduğunu bütün təfərrüatı ilə meydana çıxarar. İnsanı insan olaraq tanıtmaq, ruhu və bədəni arasın-



dakı rabitəni aşkarlar. Şəxsi aləmində bu rabitənin varlığını inkar edən xəyal olmayan bu kainatı inkar etmiş olar. Yer üzünün əşrəfi, göy üzünün qibtə etdiyi insan nəslini heyvanlarla bağlamaq məsləyini məktəb daşımaz. Burada kainatın ruhu olan insanın tarixi, var olma səbəbi, yaradılış qayəsi açıqlanır. Kainata şəfqət qucağını açan, insanları həm sevən, həmdə sevdirən dərslər tədris olunur. Məktəb təkcə dərs verməklə kifayətlənməz, həmçinin ibrət almağı, nəzəri bilgiləri təcrübəyə çevirməyi də təmin edər.

Kiçik kainat olan insanın qəlbinin anatomiyasını, ruhunun məna aləmində şahlanmasını, ağıl perspektivini böyük kainatla birləşdirən məktəb oxucusunu, Ərşin ətəklərinə qədər qaldırar. Oradan baxmaq, oradan aləmləri müşahidə etmək, müşahidəçidə zövq, şövq sonsuz feyz əmələ gətirir. Kiçik kainatla böyük kainat arasındakı əlaqələr, irfan pətəyi olan məktəbin məhsuludur. Burada bilgi elmə, elmdə helmə dönər. İctimai həyatımızın ən önəmli məsələlərinin təməli məktəbdə təsis edilir. Bir ömrün yaşanma, dəyərləndirmə üslubu, bir dünyanın ədalət üzərində inşa edilmə məfkurəsi də burada gerçəkləşdirilir. Hər dərsdə dinləyicinin düşüncə üfüqü genişlənər, sürətlə zamanı qabaqlama həvəsi yaranar. Beləliklə ən böyük vəzifənin insana verildiyini və bu vəzifəni də icra etmək üçün ən ali, ən üstün məziyyətlərində ona əta edildiyini qəbul edir. Deməli bu istedadları, imkanları kamilcəsinə inkişaf etdirmək, bu mübarək təlim ocaqlarının üzərinə düşür. Əgər məktəb funksiyasını icra etməsə, oranın məzunları mənsub olduqları millətin intellektli övladları olma şansını itirər. İnsan lazımlı ölçüləri, tədbirləri zamanında almadıqca, həyatını fəlakətlərlə doldurar. Bu fəlakət qasırğasının dalğaları başqalarının da maddi və mənəvi həyatlarını şiddətli təhdid altına alar. Bu yaranı müalicə etmək çətin olduğu qədərdə böyük vaxt itkisinə səbəb yaradar. Sözügedən xatanı işləyən xalqlar, on illərlə sivil dünyanın amansız, ədalətsiz və insafsız rəqabətinin arxasınca sürünməyə məhkum edilir. Bəzən də dünya səhnəsindəki oyunları, sadəcə olaraq əsrlər sonrası təqib etməklə məşğul olur.

Məktəb qapısı, pəncərəsi, həyəti və bütün avadanlıqlarıyla mübarək əmanətdir. Oradakı hər qələm haqqı yazar, hər yazılmış kağız parçası həqiqətə könül verər, söylənilən hər fikir səmimi olar. Yalanın iftiranın və haramın daxil ola bilmədiyi tək ev varsa, o da məktəbdir. Çünki məktəb millətin mənəviyyat qalası, birliyin simvolu və həyatda yaşamanın düsturudur. Hər kürsüsü minlərlə könülə xitab etmək ədəbini, minlərlə insanı dinləmək mədəniyyətini öyrədərək, kollektivləşmə şüurunu formalaşdırır və fərqli düşüncələrin vəhdətini təmin edir. Bu vəhdətin həyəcanı ətrafında bütünləşən gəncliyimiz elmin gücü ilə səmaviləşər. Üç rəngli bayrağımızı ayın da sinəsinə sancar. Ayaqlarını vətən torpaqlarına söykəyərək, əllərini dağlar kimi buludlara yönəldər. Şimşəklərin qorxunc bərqlərindən heyrətlənmədən, yağışların bərəkətini ilk öncə Azərbaycana yönəldər. Bir övladlıq edərək kainat süfrəsini uca millətimizin önünə açar.







# Dərviş Yunus





| MÜBARİZ YUNUSOV

Bir zamanlar ucqar kəndlərin birində əkinçiliklə keçinən, həddindən artıq kasıb olan Yunus adlı bir adam vardı.

Kəndləri, yamyaşıl meşənin və dağların qoynundan süzülüb gələn çayın kənarında yerləşirdi. Kənd camaatı daha çox əkinçiliklə məşğul olurdu...

Həmin il böyük qıtlıq üz vermişdi. Kəndlilər qış üçün heç bir tədarük görə bilməmişdilər. Yunus, yardım istəmək üçün yaxın kəndlərin birində səxavəti və comərdliyi ilə tanınan Hacı Bektaş Vəlinin dərgahına yollandı. Əliboş getməmək üçün yol boyu meşədən giləmeyvə topladı. Dərgaha çatıb dərgahdakılara gəlişinin səbəbini anlatdı və yardım olaraq buğda istədi. Vəziyyəti Hacı Bektaş Vəliyə çatdırdılar, o da adamları vasitəsi ilə soruşdu:

Buğdamı verək, yoxsa nəfəs?

Yunus: – Nəfəsi neyləyirəm mənə buğda lazımdır dedi.

Hacı Bektaş Vəli də: Buğda lazımdırsa verək. Ancaq nəfəs lazımdırsa gətirdiyi meyvələrin hər biri qədər nəfəs verək.

Yunus yenə: Nəfəsi neyləyirəm mənə buğda lazımdır.

Vəli bu dəfə də: Buğda lazımdırsa verək, ancaq nəfəs lazımdırsa hər bir meyvənin içindəki tumu qədər nəfəs verək.

Yunus inadından əl çəkmədi. Uşaqlarının ac olduğunu və nəfəsin onların qarnını doydurmayacağını söylədi. Əgər yaxşılıq etmək istəyirsinizsə mənə buğda verin gedim – deyə təkid etdi.

Hacı Bektaş Vəlinin əmri ilə öküzlərin götürə biləcəyi qədər Yunusa buğda verilir, o da kəndə doğru yola düşür. Yolboyu Hacı Bektaş Vəlinin nə demək istədiyini və bu nəfəsin nə olduğunu düşünür. Birdən Hacı Bektaş Vəlinin nə demək istədiyini anlayır. "Aman Allah, mən neylədim mənə ehsan edildi, dirilik yolu göstərildi, Haqqa çağırdılar mən isə onu geri çevirdim, rədd etdim" deyib tez gəldiyi yolu geri dönüb dərgaha sarı üz tutdu. Bir müddət sonra gəlib dərgaha çatdı. Öküzlərə yüklədiyi buğda kisələrinin hamısını boşaldır və Haqq dostu mənə etdiyi nəsibi versinlər deyib ricada bulunur.

Dərgahdakılar Yunusun dediklərini Hacı Bektaş Vəliyə çatdırırlar. O da "bu iş artıq burada olmaz, biz onun könül qapısının açarını Tapdıq Əmrəyə verdik, – dedi, getsin nəsibini ondan alsın".

Yunus üz tutur Tapdıq Əmrənin dərgahına. Hacı Bektaş Vəlinin salamını yetirir.

O da xoş gəldin səfa gətirdin deyib, gəlişinin səbəbini anladıq, buyur xidmət et əmək sərf et, nəsibini al deyir və Yunus dərgaha odunçu təyin edilir.

Hər gün səhər tezdən yerindən qalxıb kəndin yaxınlığındakı meşəyə üz tutur və oradan dərgaha odun daşımağa başlayır..

Bəli, tələbə olmaq, həqiqi tələbəliyi qəbul etmək, çətinliklərlə razılaşmaqdır. Bunu hər kəs bacara bilməz, bu bir "kişi" işidir. Bunun üçündür ki, tələbəlik çətindir, odun daşıtdırırlar, ciyər satdırırlar, zəhər daddırırlar, hamısına qatlanmaq gərəkdir.

Və beləliklə Yunus günlərcə, aylarca, illərcə dərgaha odun daşımağa başlayır. O qədər ki, artıq balta vurmaqdan əli, odun daşımaqdan beli qabar bağlayır, hətta yara olur. Amma bir an olsun xidmətindən əl çəkməyir, dərgaha bir ədəd belə olsun əyri-üyrü odun gətirməyir. Düz odun tapmaq üçün bəzən hətta – dağların təpəsindəki meşələrə belə dırmanır...

Bir gün Tapdıq Əmrə Yunusdan soruşur:

Oğlum bunlar nə düz odunlardır, meşədə heç əyri odunlar yoxdurmu?

Yunus utancaq bir halda deyir: "var Ustad amma sizin qapınızdan içəri əyri odun girməz ki, bu qapıya əyri yaraşmaz".

Bəli, Yunus düz otuz il dərgahda çalışdı, çapaladı, xidmət etdi. Fəqət bir gün necə oldusa "mən düz otuz ildir ustadımın qapısında xid-

mət etdim ancaq gözlədiyim qarşılığı ala bilmədim" – deyib, heç kəsə bir şey söyləmədən, dərgahı tərk etdi və düşdü yollara...

Nədənsə yolboyu içini anlaşılmaz bir hüzn, bir kədər qapladı, ancaq bu arada bir şeyin fərqinə vardı: Tapdıq Əmrənin qapısında ən bəsit işləri yerinə yetirərkən içində hüzur, könlündə bir aydınlıq, bir fərahlıq var idi, ancaq elə ki, oradan ayrıldı, sanki içi qaralıb könlü qatılaşdı və bunları düşündükcə, Tapdıq Əmrəyə qarşı içini bir həsrət, bir hicran sardı...

Səfərə davam edərkən bir axşam vaxtı yolda üç nəfərə rast gəldi. İçini saran hüzn və həsrət bəlkə bir az azalar düşüncəsi ilə onlara qoşuldu.

Onlarla bərabər bir müddət yola davam etdi.

Bir müddət sonra yoldaşlıq etdiyi insanlar Yunusun diqqətini cəlb etdi. Bu adamlar dərviş qiyafəli yaşlı insanlardı və güvən doğuran halları vardı. Yolçuluq əsnasında bir vaxt gəldi ki, yeyəcək hər şeyləri tükəndi, xurcunlarında heç bir şeyləri qalmadı. Dostlardan biri əllərini açıb dua etdi, Allahdan yemək üçün bir şeylər istədi. Bir az irəli getmişdilər ki, qarşılarına yeməklə dolu bir süfrə çıxdı, yedilər içdilər, Rəblərinə dua edib təkrar yola davam etdilər. Bundan sonra bu üç nəfərdən hər biri yolda yeməkləri qurtardığında dua edib Allaha yalvardı və ilahi bir lütf olaraq da qarşılarına bir süfrə çıxdı, onlar da bu süfrədən yedilər və yenə yollarına davam etdilər. Sonda dua etmək sırası Yunusa çatdı.

Yol yoldaşlarının hər biri Allah qatında uca insanlar idi ki, duaları qəbul olurdu. Özü isə miskin biçarənin biriydi, necə duası qəbul olunardı ki? Deyə düşünürdü. Amma duanı etməli idi. Bütün varlığı, səmimiyyəti ilə Rəbbinə yönəldi və yalvardı: "Allahım bu yoldaşlarım sənə kimin üzü suyu hörmətinə yalvardılarsa, mən də onun üzü suyu hörmətinə sənə yalvarıram və səndən istəyirəm, məni utandırma... Ya Rəbbi..!

Bu duadan sonra əvvəlkilərdən iki dəfə zəngin bir süfrə qarşılarına çıxdı. Dostlar heyrət içərisində:

– Qardaş sən kimin hörmətinə dua etdin ki, Allah bizə belə zəngin bir süfrə nəsib etdi.

Yunus dedi: əvvəlcə siz söyləyin. Siz kimin hörmətinə dua etdiniz.

– Biz Tapdıq Əmrənin dərgahında həddindən artıq səmimi, itaətkar bir dərviş var adı Yunusdur, onun hörmətinə Allaha dua edib yalvardıq.

Yunus bunları duyduğunda heç bir şey deyə bilmədi, nitqi tutuldu dili ağzı söz kəsmədi, sadəcə gözlərindən süzülən yaşlar onun halını ifadə etməyə yetdi.

Döndü geri. Günlərcə acsusuz, peşman halda durmadan yürüdü. Tapdıq Əmrənin dərgahına gəlib çatdı. Ustadından izinsiz dərgahı tərk etmişdi, halbuki Tapdıq Əmrə ona böyük dərəcələr qazandırmışdı. Dərin bir peşmançılıq içərisində bədənindən sıyrılmış bir ruh kimi dərgah qapısından içəri girdi. "Ustadımdan necə əfv diləyim görəsən, məni bağışlayarmı" – deyə Tapdıq Əmrənin Xanımından soruşdu.

O da: Ustad hər gün sabah tezdən dəstəmaz almaq üçün nərdivanlarla hücrəsindən aşağı enər, sən də gedib başını qoy o, nərdivanlara. O, ayağını atarkən soruşacaq bu kimdir. Mən də deyəcəyəm Yunus. Əgər desə ki, hansı Yunus bil ki, səni könlündən silib, yox əgər desə ki, bizim Yunus bil ki, səni könlündən çıxartmamışdır.

Yunus belə də edir.

Ustadının gözləri görmürdü o, tezdən qalxıb nərdivanlardan aşağı enərkən, Yunus göz yaşı, peşmançılıq içində qoydu başını ustadının ayaqları altına, ustad ayağını atar atmaz "Yunusum gəldimi" deyir. Yunus hıçqırıqlarla sarılır ustadının ayaqlarına...

O gündən Yunus olur Yunus Əmrə...

Eşqin məndən aldı məni,
Mənə səni gərək, səni.
Alışıram gecə-gündüz,
Mənə səni gərək, səni!

Nə varlığa sevinirəm,
Nə yoxluğa yerinirəm.
Eşqin ilə ovunuram,
Mənə səni gərək, səni!



***Bu dünyanı və onun insanlarını nüvə silahlarının dəhşətindən, hidrogen bombalarının vəhşətindən, çarəsi hələdə tapılmayan xəstəliklərin pəncəsindən, diplomlu cahillərin cəhalət bataqlıqlarından, ədalətsiz bölgüyə görə iqtisadi nizamsızlığın məngənəsindən, enerji qaynaqlarının israfından, sərvətlərin tükənmə əndişəsindən qurtarmanın yolunu elmdə görürlər. Halbuki, elm əxlaqı təlim etmək iqtidarında deyil. Deməli, cahanın başına gələn bəlaların qurtuluşu həqiqi əxlaqa əsaslanan elmdədir.***



٢٠٠٧ ، (٣٨) ٦

ادبی فنی سیاسی اجتماعی مصور هفته لك ترکجه مجموعه اسلامیهٔ در

# فیوضات

انسان اوغلونون ادبدن نسیبی
یوخدورسا، انسان دگلدر.
انسان ایله حیوان اراسنداکی
فرق ادبدر.

شمس تبریزی